# TÜRKÜN DÜNYA NİZAMI

## HARUN YƏHYA (ADNAN OKTAR)

# İÇİNDƏKİLƏR

ÖN SÖZ

MİRASIMIZ

DÜNYA İMPERİYASI OSMANLI

MİRASIMIZA SAHİB ÇIXMAQ

TÜRK DÜNYASINDA MÖVCUD VƏZİYYƏT

BALKAN ÖLKƏLƏRİNİN VƏZİYYƏTİ

YAXIN ŞƏRQDƏ SÜLHÜ BƏRQƏRAR ETMƏK

XİLASKARINI GÖZLƏYƏN QAFQAZ VƏ ORTA ASİYA

HƏLL YOLU VƏ NƏTİCƏ

ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI

# MÜƏLLİF VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. Orta təhsilini Ankarada tamamlayıb. Daha sonra İstanbul Memar Sinan Universitetinin Gözəl Sənətlər fakültəsində və İstanbul Universitetinin Fəlsəfə fakültəsində təhsil alıb. 80-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı müəllifin təkamülçülərin saxtakarlığını, iddialarının əsassızlığnı və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin yer aldığı bütovlükdə 45.000 səhifəlik bir külliyyatdır və bu külliyyat 57 müxtəlif dilə tərcümə edilmişdir.

Müəllifin imzası inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirələrinə hörmətlə, adlarını yad etmək üçün Harun və Yəhya adlarından ibarətdir. Yazıçı tərəfindən kitabların cildində Rəsulullahın möhürünün istifadə edilməsinin simvolik mənası isə kitabların məzmunu ilə bağlıdır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v.) də xatəmül-ənbiya (son peyğəmbər) olmasını bildirir. Müəllif də dərc etdirdiyi bütün əsərlərində Quranı və Peyğəmbərin sünnəsini özünə rəhbər tutmuşdur. Bu yolla inkarçı ideologiyaların bütün təməl iddialarını tək-tək məhv etməyi və dinə qarşı yönəldilən etirazları tamamilə susduracaq ”son sözü” söyləməyi qarşısına məqsəd qoymuşdur. Çox böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu son sözü söyləmək niyyətinin bir duası kimi istifadə edilir.

Müəllifin bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaqdır. Beləliklə, insanları Allahın varlığı, birliyi, axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və azğın fəaliyyətlərini nəzərə çatdırmaqdır.

Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya və Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın bir çox ölkəsində bəyənilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, azərbaycan, ərəb, alban, rus, bosnyak, uyğur, indonez, malay, benqal, serb, bolqar, çin, kişvahili (Tanzaniyada işlədilir), hausa (afrikada geniş işlədilir), divelhi (Mavritaniyada işlədilir), danimarka və isveç kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən daima oxunur.

Dünyanın hər tərəfində çox bəyənilən bu əsərlər bir çox insanın iman gətirməsinə, bir çoxunun da imanda dərinləşməsinə səbəb olur. Kitabları oxuyan, nəzərdən keçirən hər bir şəxs bu əsərlərdəki hikmətli, əsaslı, asan başa düşülən və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqinə varır. Bu əsərlər sürətlə təsir etmək, qəti nəticə vermək, etirazlara yer qoymamaq, əsaslılıq kimi xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi düşünən insanların, artıq materialist fəlsəfəni, ateizmi və digər batil fikir və fəlsəfələrin heç birini səmimi şəkildə müdafiə etməsi mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq inadkarlıqla müdafiə edəcəklər, çünki ideoloji əsasları məhv edilmişdir. Dövrümüzdəki bütün inkarçı meyllər Harun Yəhya Külliyyatı qarşısında fikrən məğlub olmuşdur.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikməti və izahının valehediciliyindən qaynaqlanır. Müəllifin özü bu əsərlərinə görə lovğalanmır, yalnız Allahın hidayətinə səbəb olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin nəşrində və yayımlanmasında maddi məqsəd güdmür.

Bu həqiqətlər nəzərə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə səbəb olan bu əsərlərin oxunmasına sövq etməyin də çox mühüm xidmət olması məlum olur.

Bu dəyərli əsərləri tanıtmaq əvəzinə insanların ağlını qarışdıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri dağıtmaqda, imanı qurtarmaqda güclü və kəskin təsiri olmadığı ümumi təcrübədə müəyyən edilən

kitabları yaymaq isə əmək və zaman itiksinə səbəb olar. İmanı qurtarmaq məqsədindən daha çox müəllifin ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi açıqdır. Bu barədə şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi məhv etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, uğur və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Dünyadakı zülm və qarışıqlığın, müsəlmanların çəkdikləri əziyyətlərin əsas səbəbinin dinsizliyin ideoloji hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikrən məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanı gündən-günə daha çox zülm, fəsad və qarışıqlığın içinə sürükləndiyi nəzərə alındıqda bu xidmətin əldən gəldiyi qədər sürətli və təsirli şəkildə edilməsinin nə qədər mühüm olduğu məlum olur. Əks təqdirdə çox gec olar.

Bu mühüm xidmətdə əsas vəzifəni öz üzərinə götürmüş Harun Yəhya Külliyyatı Allahın iznilə, XXI əsrdə bəşəriyyəti Quranda tərif edilən rahatlıq və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısilə Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Ona görə bu nəzəriyyənin yalan olduğunu insanlara göstərmək çox mühüm imani vəzifədir. Bu mühüm xidmətin bütün insanlara çatdırılması isə vacibdir. Bəzi oxucularımızın, bəlkə bircə kitabımızı oxuma imkanı olmuşdur. Bu səbəbdən hər kitabımızda bu mövzuya xülasə şəklində də olsa, bir bölmə ayrılmışdır.

Kitabların məzmunu ilə bağlı digər cəhəti də nəzərə çatdırmaq lazımdır. Müəllifin bütün kitablarında imani mövzular Quran ayələri işığında izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət olunurlar. Allahın ayələri ilə bağlı bütün mövzular oxuyanın ağlında heç bir şübhə və ya sual doğurmayacaq şəkildə açıqlanır.

Buradakı izahlarda istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsdə oxunan kitablar” ifadəsinə tamamilə uyğun gəlir. Dini qətiyyətlə rədd edən insanlar belə, bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir, izah edilənlərin doğruluğunu inkar etmirlər.

Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən fərdi şəkildə olduğu kimi, qarşılıqlı söhbət mühitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları birlikdə oxumaları mövzu ilə bağlı öz fikir və təcrübələrini bir-birlərilə paylaşmaları baxımından faydalı olar.

Bununla yanaşı sadəcə Allah rizası üçün yazılmış bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmət olar. Çünki müəllifin bütün kitablarında sübut və inandırma çox güclüdür. Bu səbəbdən dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına sövq edilməsidir

Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əlavə edilməsinin isə mühüm səbəbləri var. Bu sayədə kitabı əlinə alan şəxs yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan zövq aldığını ümid etdiyimiz bu kitabla eyni vəsflərə malik olan daha bir çox əsər olduğunu görəcəkdir. İmani və siyasi mövzularda faydalanacağı zəngin mənbə toplusunun mövcud olduğuna şahid olacaqdır.

Bu əsərlərdə digər bəzi əsərlərdə görünən, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəs şeylərə qarşı ədəbə və hörmətə diqqət verilməyən üslublara, narahatlıq verən ümidsiz, şübhəli və ümidsizliyə sürükləyən izahatlara rast gələ bilməzsiniz.

# ÖN SÖZ

***Tarix türklərdən çox şey öyrənib. Onların elə əsərləri var ki, hər biri sivilizasiya üçün zinətdir...*[1]**

***(Məşhur avstriyalı şərqşünas Baron Cosef von Hammer-Purqstal)***

Türklər tarix boyu 180-dən çox dövlət qurublar. Hətta bir çox tarixçi tədqiqatları dərinləşdirdikcə bu sayın daha da artacağını bildirir. Bu dövlətlərdən 16-sı dünya tarixində əsas rol oynamış güclü dövlətlərdir.[2] Prof. Dr. Kemal Tahirin 1966-cı ildə söylədiyi kimi: *"Türk millətinin tarix boyu bayraqsız və dövlətsiz qalmaması təsadüfi deyil. Onun kökündəki dinamiklik onu dövlət qurmağa meyilli etmişdir... Dövlət qurmaq başqa şeydir, dövləti idarə etmək başqa şeydir. Türk milləti tarix boyu həm dövlət qurmaqda, həm də idarə etməkdə usta olmuşdur."* [3]

Türk milləti bir-birindən güclü 16 dövlətlə və bu dövlətlərin idarəçiliyində göstərdiyi qabiliyyətlə bütün dünya millətlərinə tarix boyu nümunə olmuşdur. Bunun ən əsas səbəblərindən biri isə hakimiyyəti altında yaşayan müxtəlif etnik qrupları hər birinin dil və din mənsubiyyətinə hörmət edərək, sülh və əmin-amanlıq içində əsrlər boyu birlikdə yaşatma bacarığıdır. Eyni torpaqlarda hakimiyyət quran müxtəlif dövlətlər isə bu cür uğura nail ola bilməmiş, sözügedən torpaqlarda bu qədər uzunmüddətli başqa xalqın hakimiyyəti davam etməmişdir.

Səlcuq və Osmanlı dövlətləri başda olmaqla, türk millətini bu coğrafiyada birləşdirən və güclü edən ünsürləri təkcə hərbi güclə açıqlamaq olmaz. Anadolunu fəth edən, Adriatik dənizindən Çin səddinə qədər dünyanın ən qarışıq bölgəsini əsrlər boyu hakimiyyəti altında saxlayan qüvvə türk millətinin kökündə olan və türklərin İslamı qəbul etməsi ilə əsl şəxsiyyətini tapan əxlaq anlayışıdır.

Quranda əmr edilən bu əxlaqın əsas xüsusiyyətləri dürüstlük, mərdllik, zülmdən və haqsızlıqdan uzaq olmaq, ədaləti bərqərar etmək, tolerantlıq və uzlaşmadır. Bu xüsusiyyətlərinə görə müsəlman türklərə tabe olan xalqlar da həmişə onların idarəçiliyindən razı qalmış, hətta çox vaxt öz istəkləri ilə onların hakimiyyəti altına daxil olmuşlar. Osmanlı imperiyasının bu ədalətli idarəçiliyinə görə bütün Balkan yarımadası ölkələri, Qafqaz və Yaxın Şərqdə yaşayan üç dinə və müxtəlif məzhəblərə məxsus, dilləri, mədəniyyətləri, milliyyətləri bir-birindən tamamilə fərqli milyonlarla insan əsrlər boyu heç bir zülmə məruz qalmadan əmin-amanlıq içində yaşamışdır.

Ancaq dövrümüzdə həmin torpaqlardakı əziyyət, göz yaşı, zülm və müharibə heç bir şəkildə sona çatmır. Balkan ölkələri, Yaxın Şərq və Qafqazdan ibarət və mərkəzində Türkiyənin yerləşdiyi "Osmanlı coğrafiyası" hələ də çox hərəkətli, qarışıq quruluşa malikdir. Osmanlı dövlətinin siyasi cəhətdən varlığına son qoyulduqdan sonra bu bölgədə əmələ gələn boşluq hələ doldurulmamış və həqiqi əmin-amanlıq bərqərar olmamışdır. Bu vəziyyət həmin torpaqlarda əsrlər boyu nümunəvi "birlikdə yaşama modeli" tətbiq etmiş müsəlman türk millətinə diqqət çəkir, bu modelin dövrümüzdə və gələcəkdə də ancaq müsəlman türk milləti tərəfindən tətbiq edilməsinin mümkün olduğunu göstərir. Belə ki, son illərdə bir çox dövlət adamı və politoloq, başda Osmanlı dövləti olmaqla, türk dövlətlərinin uğurla həyata keçirdiyi ədalətli idarəçilik sistemini araşdırır. Bu araşdırmalardakı məqsəd türklərin idarəçilik sistemi əsasında yeni idarəçilik modeli qurmaqdır.

Bu kitabdakı məqsədimiz də 1900-cü illərin əvvəlindən etibarən müharibələrin və qarşıdurmaların bitmədiyi Yaxın Şərqdə, Balkan ölkələrində və Qafqazda daimi sülhün bərqərar edilməsinin ancaq bu tarixi mirasın varisi olan Türkiyənin liderliyində mümkün olduğunu göstərməkdir. Türkiyənin liderliyi altında qurulacaq bu birlik həm qarşıdurmalara son qoyub bölgəyə daimi sülh gətirəcək, həm də bölgə ölkələrinin güclü iqtisadi birliyi ilə bütün xalqların rifah səviyyəsini yüksəldəcək.

Bu bölgədə yaşayan dövlətlər bir-birləri ilə müharibə aparmaq əvəzinə bütün güclərini birləşdirsələr, hərbi, siyasi və iqtisadi cəhətdən ən güclü dövlətlər olarlar. Ortaq xarici siyasət bu dövlətləri dünya siyasətində böyük gücə çevirər. Ona görə XXI əsrə qədəm qoyduğumuz dövrdə Türkiyənin gələcəyə dair missiyası tarixdəki türk dövlətlərinin böyüklüyünə və şanına yaraşan tərzdə olmalıdır. Habelə bu missiya tarixən olduğu kimi, bu gün də türk millətini zirvəyə qaldırmalı, layiq olduğu lider dövlətlər sırasına daxil etməlidir. Dünya tarixinin ən güclü dövlətlərini qurmuş, bütün Aralıq dənizi və Yaxın Şərq coğrafiyasına nizam vermiş türk millətinin axtardığı həll və çıxış yolları öz tarixində mövcuddur.

# MİRASIMIZ

***"Türklər irq və millət olmaq heysiyyəti ilə yer üzünün ən şərəfli insanlarıdır. Çox əsalətli və şəxsiyyətlidirlər... Əsalətləri alınlarında və əməllərində yazılıdır... Onların yurdu əsilzadələr diyarıdır, qəhrəmanlar, şəhidlər ölkəsidir."***

***(Fransız şair Alfons de Lamartin)***

Siyasət tarixindən bir az məlumatı olan hər kəsin çox yaxşı bildiyi həqiqət var: tarixini unudan və şəxsiyyətini itirən millətlər əsla güclü və daimi dövlət qura bilməzlər. Keçmişini yaxşı bilən, səhvlərindən dərs çıxarıb uğurlu fəaliyyətlərdən nümunə götürən, bir sözlə, tarixinə sahib çıxan millətlər dünya tarixində həmişə aparıcı rol oynayıblar. Tarixini qəbul etməyən, tarixindən qaçan millətlərin isə gələcəyi olmaz.

Türk millətinin dünya tarixinin hər dövründə lider millətlər sırasında olması da millətimizin bu şüura malik olması ilə bağlıdır. Belə ki, Türkiyənin mirası həm coğrafi cəhətdən Adriatik dənizindən Çin səddinə qədər dünyanın ən mühüm strateji ərazisini əhatə edir, həm də türk milləti izləri əsla silinməyən mədəniyyətin varisidir. Türklər hakim olduqları torpaqlarda qurduqları üstün sivilizasiyalara görə hər dövrdə və hər şəraitdə birləşdirici qüvvə olublar. XXI əsrdə türk millətinin yenidən lider millətlər sinfinə daxil edən miras bu güclü və aparıcı sivilizasiyanın mirasıdır.

Bəs sivilizasiyanın mirası dedikdə nə nəzərdə tutulur? Türklərin mirasını bu qədər davamlı edən ünsürlər nələrdir?

Türklər tarix boyu dövlət idarəçiliyindəki uğurları ilə yadda qalıblar, müasirləri olan digər xalqlarla müqayisədə daha qabaqcıl sivilizasiya qurublar. İslamı qəbul etməzdən əvvəl də böyük sivilizasiyaya malik olan türklər Uzaq Şərqdən Balkan yarımadasına, hətta Mərkəzi Avropaya qədər yayılmışdılar. Çin, Hindistan, İran, Roma və Bizansın sərhədlərini aşan bu ərazilərdə bir çox mühüm siyasi səhnələrdə rol oynadıqları kimi, mədəni cəhətdən də bütün dünya dövlətlərinə nümunə olan miras qoyublar. Bu dövrdə türk dövlətləri kənd təsərrüfatı, ticarət, dağ-mədən sənayesi, heyvandarlıq, silah istehsalı, incəsənət və elm kimi bir çox sahədə birinci olublar. Bu gün sözügedən ərazilərdə aparılan arxeoloji qazıntılar bu həqiqəti açıq şəkildə sübut edir. Bu qazıntılarda əldə edilən türklərə aid bir çox qiymətli sənət əsəri, heykəllər, miniatürlər, çini qablar, parça qalıqları və divar rəsmləri bu gün Berlin, Moskva və Kəlküttə muzeylərini bəzəyir.

Bununla yanaşı, türk millətinin mədəniyyətinə təsir edən ən mühüm ünsür İslamın qəbul edilməsi olmuşdur. Türklər XVIII əsrdə məşhur Talas müharibəsindən sonra kütləvi şəkildə İslamı qəbul etmiş və möhkəm bağlandıqları İslam dininin bayraqdarlığını və rəhbərliyini şərəflə öz üzərlərinə götürmüşlər.

İslamın qəbul edilməsi türk tarixində mühüm amildir. Türklər adət-ənənələrinə uyğun olaraq dürüstlük, mərdlik, cəsarət kimi xislətləri İslama uyğun yaşamağa başladıqdan sonra daha da möhkəmləndirmiş, Quran əxlaqını tanımaqla ədalətli, tolerant, uzaqgörən, vicdanlı idarəçilər yetişdirməyə başlamışlar. Bundan əlavə, İslam bölük-bölük yaşayan türklərin arasında birlik qurulmasına səbəb olmuşdur. İnanc və dil birliyinin təmin olunması ilə daha da güclənmiş, tarix səhnəsində daha sağlam addımlarla irəliləməyə başlamışlar.

İslam dövlətçilik anlayışında mühüm dəyişikliklərə səbəb olmuş, türk tarixində ilk dəfə qısamüddətli dövlətlərin yerini uzunömürlü dövlətlər tutmağa başlamışdır. Türklər artıq 10-20 illik qısaömürlü deyil, məqsədi

İslamı yaymaq və yaşatmaq olan 150-200 illik dövlətlər qurmağa başlamışlar. Böyük dövlət olan Qaraxanlıları köklü mədəniyyətə malik Səlcuqlular əvəz etmişdir.

Anadoluda hökmranlıq etdikləri müddət ərzində istər Böyük Səlcuq İmperiyası, istərsə də Anadolu Səlcuq İmperiyası türk-İslam dövlətinin hansı quruluşda olmasına və necə idarə olunmasına dair ən gözəl nümunələrdir. Çoxsaylı xristian xalqları və müxtəlif mədəniyyətlərin qarışdığı Anadolu xalqlarını hakimiyyəti altında saxlayan Səlcuq sultanları türk adət-ənənəsinə və İslam əxlaqına uyğun olaraq hər cür düşüncə tərzinə malik insana tolerant yanaşmışdır. Məşhur erməni tarixçisi Urfali Mathiu Böyük Səlcuq İmperiyasının güclü xaqanlarından Məlikşahın siyasət anlayışından belə bəhs edir:

> *Məlikşahın səltənəti Allahın lütfü ilə şərəfləndi. Hakimiyyəti uzaq ölkələrə qədər yayıldı və ermənilərə rahatlıq qazandırdı. Qəlbi xristianlara şəfqətlə dolu idi. Keçdiyi ölkələrin xalqlarına qarşı ata kimi davrandı. Bir çox şəhərlər və vilayətlər öz arzuları ilə onun hakimiyyəti altına girdi, bütün Rum və erməni əraziləri onun qanunlarını tanıdı.*[4]

Şübhəsiz, Səlcuqlu sultanlarının bu geniş tolerantlıq anlayışlarının əsasında İslam tərbiyəsi dayanır. Belə ki, Allah Quranda inananların ən əsas vəzifələrindən birinin yaxşılığı əmr edib pislikdən çəkindirmək olduğunu bildirir. Müsəlmanlar sadəcə doğru olanı izah etməklə məsuldur, hidayəti verən isə Allahdır. Ona görə Quranda insanların dinini dəyişdirməsi və ya İslama üz tutması üçün təzyiq göstərmək və zorakılıq etmək qadağan edilmişdir. Bəqərə surəsində belə buyurulur:

> **Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. (Bəqərə surəsi, 256)**

Beləcə, qəhramanlıqları dastanlara çevrilmiş Səlcuq liderləri yeritdikləri əxlaqlı və inanclı siyasət nəticəsində minlərlə insanın könlündə taxt qurmuş, bu xüsusiyyətləri ilə tarixə düşmüşlər. Belə ki, Yusuf Xas Hacib, Əhməd Yəsəvi, Əlişir Nəvai, Yunus Əmrə, Cəlaləddin Rumi, İbn Ərəbi, Sədrəddin Konevi kimi dünya səviyyəsində tanınmış alimlərin yetişdiyi dövrdən dünya tarixinə təsir edən köklü mədəniyyət miras qalmışdır.

Səlcuqlulardan sonra qurulan Osmanlı dövləti isə 600 ildən artıq çox geniş coğrafi ərazidə hökmranlıq etmiş, dünya siyasətinə istiqamət verən liderlərdən biri olmuşdur. Osmanlı imperiyası üç dinə və müxtəlif məzhəblərə mənsub, müxtəlif dilə, mədəniyyətə, irqlərə malik, dünyagörüşlərinə və inanclarına görə bir-birlərindən tamamilə fərqlənən milyonlarla insanı və çox geniş ərazini altı əsr boyu idarə etmişdir. Habelə bu idarəçilik zorakılığa və təzyiqə deyil, tolerantlığa və sosial uzlaşmaya əsaslanmışdır. Osmanlı imperiyasını bu cür şöhrətləndirən səbəblərdən başlıcası bu dövləti idarə edən hökmdarların və bürokratiyanın İslamla qazandığı ədalət anlayışı və "İla-i Kəlimətullah" (Allahın Sözünü yaymaq) idealıdır.

# DÜNYA İMPERİYASI OSMANLI

***"Osmanlıya iki qitədə hökmranlıq etmək kifayət etməz. Çünki Allahın əzmi iki qitəyə sığmayacaq qədər böyük davadır. Səlcuqluların varisi olduğumuz kimi, Romanın da varisiyik."[5]***

***Orxan Qazinin oğlu Murad bəyə nəsihəti***

Səlcuqlu dövlətinin süqutundan sonra ortaya çıxan Anadolu bəyliklərindən biri də Osmanlı bəyliyidir. Osmanlı bəyliyi qısa müddətdə inkişaf etmiş və dövrünün ən mühüm dövlətlərindən birinə çevrilmişdir. Türk-İslam bayrağını ucaltmaq məqsədi güdən bu dövlət çox qısa müddətdə müxtəlif din, dil, irq və məzhəblərə aid millətləri hakimiyyəti altında toplayan dünya dövləti olmuşdur. Məmaliki-Osmaniyyə (Osmanlı ölkələri) üç qədim qitənin birləşdiyi ərazini, yəni Avropanın cənub-qərbini, Afrikanın şimalını və Asiyanın cənub-qərbini əhatə edirdi. Dövlətin torplaqlarının sahəsi ən geniş olduğu dövrdə 24 milyon $km^2$-ə çatırdı. Cənubi Amerika materikinin təqribən 21 milyon $km^2$ olduğunu nəzərə alsaq, Osmanlı imperiyasının ərazisinin genişliyini təsəvvür etmək olar. Tarix boyu güclü və böyük sivilizasiyaların qurulduğu bu torpaqlardakı ən son və ən uzunömürlü sivilizasiya Osmanlı sivilizasiyasıdır. 600 illlik ömründə 400 il boyu dövlətin ərazi bütövlüyünü saxlayan, tənəzzül dövründəki 200 il boyu o qədər də çox ərazi itirməyən, süqut dövrü olan XX əsrin əvvəllərinə qədər gücünü və nüfuzunu qoruyan Osmanlı "dünya dövləti" ünvanına layiqdir. Şübhəsiz ki, belə böyük dövlətin bu qədər uzunömürlü olmasının səbəbi təkcə hərbi gücü deyil. Osmanlı dövlətini dünya dövləti ünvanına layiq görən ünsürlərin başında güc aldığı mənəvi dəyərlər gəlir. Hər şeydən əvvəl, Osmanlı dövləti banisi Osman Qaziyə Şeyx Ədəbli tərəfindən verilən bu nəsihətlər üzərində bina edilmişdir:

> *Ey oğlum, artıq bəysən! Bundan sonra bizə qəzəblənsələr, sən üzüyola olmalısan. Bizdən incisələr, sən könül almalısan. Bizi təqsirləndirsələr, sən səbir etməlisən. Bizi aciz vəziyyətdə qoysalar, sən güzəştə getməlisən. Anlaşılmazlıq olsa, sən ədalətin tərəfində olmalısan. Haqsızlıq etsələr, sən bağışlamalısan...*
>
> *Dünya sənin gözlərində gördüyün kimi böyük deyil. Bütün fəth edilməmiş sirlər, naməlum şeylər, görülməyənlər ancaq sənin fəzilətin və yaxşı əməllərinlə gün işığına çıxacaq.[6]*

Türk-İslam əxlaqının ən gözəl nümunələrindən biri olan Şeyx Ədəbalinin bu nəsihətlərindən də göründüyü kimi, Osmanlı dövlətinin fəaliyyət prinsipi Quranda bütün insanlara əmr edilən gözəl əxlaqdır. Bu əxlaq Osmanlını kiçik bəylikdən 3 qitəyə hökm edən dövlətə çevirmişdir. Osmanlının ədalət anlayışı, tolerantlığı və təmin etdiyi uzlaşma mühitinin əsasında İslam əxlaqı dayanır.

## Osmanlının İslam əxlaqı

Osmanlı dövləti üçün İslamın bayraqdarlığı vəzifəsini yerinə yetirməkdən, İslam ədalətini və əxlaqını dünyaya yaymaqdan daha böyük hədəf yox idi. Buna görə də Osmanlı fəth etdiyi torpaqlarda da Quranda əmr edildiyi kimi heç bir zorakılığa və təzyiqə əl atmadan İslam əxlaqını yaşatdı və hakim etdi. Osmanlı üçün sadəcə müsəlman və türk xalqının deyil, eyni zamanda ona tabe olan hər millətdən və dindən olan insanın rahatlığı və xoşbəxtliyi vacib idi. İslam əxlaqına uyğun olaraq Osmanlı padşahları onlardan kömək istəyən

insan inancsız da olsa, ehtiyac içində olana yardım etmiş və buna görə Allah qarşısında məsul olduqlarını bilmişlər. Bu, iman gətirənlərə Quranda bildirilən əmrdir:

> **Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir camaatdır. (Tövbə surəsi, 6)**

Osmanlı dövləti üçün fəth etdiyi torpaqların hamısı "vətən torpağı" idi və "Darül-İslam" (İslam yurdu) qəbul edilən bu torpaqlarda yaşayan insanların hamısı İslamın xəlifəsi olan padşaha əmanət idilər. Osmanlı padşahlarının Allah və Peyğəmbər sevgiləri hər işdə etidallı, ədalətli mərhəmətli olmalarına və uğurlu nəticə əldə etmələrinə səbəb olmuşdur. Osmanlı padşahları özlərini xalqın işlərini görmək üçün Allah tərəfindən təyin edilmiş şəxslər kimi görür və xalqa xidmət etməyi əsas vəzifələri hesab edirdilər. Piri Paşanın Yavuz Sultan Səlim haqqında dediyi sözlər bu həqiqəti açıq şəkildə göstərir:

> *Özlərini padşah hesab etmirdilər. "Haqq-Təalanın yazıq və yoxsul qullarının və yer üzündəki bütün qullarının təhlükəsizliyini qorumaq üçün göndərdiyi dəyərsiz biriyəm"deyərdilər...*[7]

İslam əxlaqının yaşandığı və hakim olduğu Osmanlı torpaqları eyni zamanda çox böyük alimlərin vətəni idi. Osmanlı idarəçiləri hərbi və mülki şəxslərə olduğu qədər elm əhlinin də fikirlərinə dəyər verir, qərar qəbul edərkən onlarla məsləhətləşirdilər. Ədalətin təmin olunması üçün çox çalışırdılar. Osmanlı padşahları xalqa qarşı dövlətin adından sui-istifadə edən idarəçiləri bu əməllərdən çəkindirmək üçün bir çox qanun hazırlamış, özlərinin şahid olmadıqları məsələlərdə belə xalqın dövlətdən razı qalacağı sistem təsis etmişdilər. Dövlət məmurlarının qanuna və ədalətə zidd davranışlarını qəti qadağan edən bir çox qanunnamədən biri də Səməndərə hakiminə göndərilən bəyannamədir. Padşah bu bəyannamədə xalqın ona Allahın əmanəti olduğunu bildirdikdən sonra qanuna zidd olaraq Sancak bəylərinin və digər məmurların əhalidən artıq şey almasını zülm hesab edir və bunu qəti qadağan edirdi. Bu əmri yerinə yetirməkdə məsuliyyətsizlik edənlərin və etinasız yanaşanların dərhal cəzalandırılmalarını əmr edirdi.[8]

Türk-İslam əxlaqının gətirdiyi ədalət sistemi Osmanlı dövlətini müasiri olan dövlətlərdən qat-qat üstün edən əsas xüsusiyyətlərdən biri idi. Osmanlıların şərəflə həyatlarına tətbiq etdikləri İslam əxlaqı onlara öz əleyhlərinə belə olsa, ədaləti əmr edirdi. "Nisa" surəsində bildirilən bu əxlaqi xüsusiyyət Osmanlının və bütün müsəlmanların üstün ədalət anlayışının əsasını təşkil edir:

> **Ey iman gətirənlər! Özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. Varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin... (Nisa surəsi, 135)**

Türklərin ələ keçirdiyi torpaqlarda bu düşüncə və inancla ədalətli, şəfqətli, mərhəmətli, millət və qəbilə təəssübkeşliyindən uzaq siyasət yeritmələri türk idarəçiliyinin bir çox ölkə tərəfindən xilaskar kimi qarşılanmasına səbəb oldu.

Din və vicdan azadlığı bütün türk dövlətlərində olduğu kimi, Osmanlı dövlətində də ciddi cəhdlə qorunurdu. Osmanlı torpaqlarında kilsə, sinaqoq və məscidlər yan-yana idi. Buna görə başda katolik Avropanın sıx təzyiqlərinə məruz qalan pravoslav Balkan xalqları olmaqla, bir çox millət dəfələrlə xristian idarəçilərin deyil, müsəlman türk idarəçilərin hakimiyyəti altında yaşamağa üstünlük vermişdilər. Təkcə xristianlar deyil, XV əsrin sonlarında İspaniyadakı yəhudilər də kütləvi şəkildə ədalətinə və din azadlığına olan hörmətinə güvəndikləri Osmanlı dövlətinə sığındılar.

Tanınmış tarixçilərimizdən Prof. Dr. İsmet Miroğlu "Tarix və mədəniyyət" jurnalında dərc olunan bir məqaləsində Osmanlıdakı din və vicdan azadlığına ətraflı yer vermişdir. Miroğlunun bildirdiyi kimi, rus kilsəsinin zülmünə tab gətirməyən kazaklar da din azadlıqlarını Osmanlı hakimiyyətində əldə edən xalqlardandır. Prof. Miroğlu sözügedən məqaləsində Antalya patriki Makariosun pravoslavlara zülm edən katolik polyakları Osmanlı hökuməti ilə müqayisə edən sözlərinə də toxunur:

*O imansızların öldürdüyü minlərlə insan, qadın, qız və kişilər üçün ağladıq. Lehlilər (polyaklar) pravoslav adını dünyadan silmək istəyirlər. Allah türklərin dövlətini əbədi etsin. Çünki türklər vergi aldıqdan sonra xristian və yəhudilərin dinlərinə toxunmurlar.*[10]

Osmanlı tarixi sahəsində mütəxəssis olan məşhur tarixçi Artur Gibbonsun *"Osmanlı imperiyasının qurulması"* adlı əsərindəki osmanlılar haqqındakı bu fikirləri Osmanlının tolerantlığını sübut edir:

*"... Bu bir həqiqətdir ki, türklər yeni dövrdə dövlətlərini qurarkən din azadlığı fikrini əsas almış millətdir. Yəhudi və xristianların müntəzəm təzyiqlərinə baxmayaraq, türklərin Balkan yarımadasına girməsindən sonra yerli qeyri-müsəlmanlarla yeni gələn müsəlmanlar əsrlərlə uzlaşma içində yaşayıblar."*[11]

Tarixçi və tədqiqatçıların da tez-tez vurğuladığı bu ədalət və tolerantlıq anlayışı Osmanlı hökumətinin Türk-İslam əxlaqına xas xüsusiyyətlərindən qaynaqlanır.

Əsrlər boyu şanlı dövlətlər qurmuş, üç qitədə hökmranlıq etmiş millətin sələfləri və XXI əsrdə yeni dünya dövləti qurmağa namizəd olan bir millətin fərdləri kimi bizim üzərimizə Osmanlını Osmanlı edən bütün maddi-mənəvi dəyərlərin əhəmiyyətini doğru anlamaq və tətbiq etmək düşür.

Osmanlı nümunəsi göstərir ki, türk milləti çox geniş coğrafi ərazini asanlıqla idarə edəcək təcrübə, bacarıq və gücə malikdir. Osmanlının təməlində duran dəyərləri yaxşı anlamaq, bunları yenidən müasir dövrə uyğun şəkildə şərh və tətbiq etmək vacibdir.

# MİRASIMIZA SAHİB ÇIXMAQ

*“Könlüm Afrikanın şimalından Əndəlusa səfər etmək və daha sonra Balkanlardan keçərək yenidən İstanbula dönmək istəyir!”*[12]

*Yavuz Sultan Səlim, Misirin fəthindən sonra İstanbula qayıdarkən*

Buraya qədər izah edilənlərdən də məlum olduğu kimi, türk milləti olduqca sağlam, köklü mirasa malikdir. Bu mirasın əhəmiyyətini qavrayıb layiqincə dəyərləndirmək və keçmişimizə sahib çıxaraq gələcəyə üz tutmaq vacibdir. Cümhuriyyətimizin banisi böyük öndər Atatürkün yeritdiyi siyasət bu yanaşma tərzinə ən gözəl nümunədir.

Atatürk Milli Mübarizə illərində türk millətinin gələcəyi üçün çox mühüm istiqamət müəyyən etmişdi. Həm Osmanlı paşası, həm də gənc cümhuriyyət banisi olan Atatürkün siyasəti **“milli-mədəni mirasımıza sahib çıxmaq, Osmanlı adət-ənənəsini müasirləşdirərək XX əsrə aparmaq”** idi. Atatürk dövrünün şərtlərinin imkan verdiyi qədər Osmanlı mirasına sahib çıxmışdı. Atatürkün qurduğu gənc Türkiyə cümhuriyyətinin Osmanlının borclarını son qəpiyinə qədər ödəməyi qəbul etməsi və bütün iqtisadi çətinliklərə baxmayaraq, bu borcları ödəməsi Osmanlı mirasına sahib çıxma istəyinin bir göstəricisi idi. Bundan əlavə, Atatürk Osmanlı adət-ənənəsini davam etdirərək Türkiyə hökumətinə sığınmaq istəyən qeyri-türk müsəlmanları (albanları, çərkəzləri, bosnyakları), fərqli etnik mənşəli müsəlmanları eyni dinə sahib insanlar kimi qəbul etmişdir. Digər tərəfdən, Atatürk “Balkan Antantası” və “Sadabad paktı” kimi müqavilələrlə qədim Osmanlı coğrafiyasında Türkiyənin nüfuzunu qorumağa çalışmışdı. “Balkan Antantası” bəzi Balkan yarımadası ölkələri, Sadabad paktı isə bəzi Yaxın Şərq ölkələri ilə Türkiyənin liderliyi altında strateji əməkdaşlıq məqsədi güdürdü.

Bu, çox düzgün strategiya idi. Çünki daha əvvəl də bildirdiyimiz kimi, “dövlət ənənəsini” təşkil edən ən mühüm ünsürlərdən biri millətin tarixidir. Tarix millətin yaddaşıdır və hər millət dostlarını və düşmənlərini onların tarixi ilə dəyərləndirir. Tarix dövlətlərə etibar və nüfuz qazandırdığı kimi, xüsusilə qədim imperiyaların varisləri olan millətlərin keçmişdə onlara aid torpaqlarda söz sahibi olmalarına da mühüm vasitədir. Bir vaxtlar imperiya olan İngiltərə əsrin əvvəlindən etibarən mərhələli şəkildə azalan siyasi və iqtisadi gücünə baxmayaraq, hələ də keçmiş müstəmləkələri üzərində müəyyən nüfuza malikdir. Fransa və keçmiş müstəmləkələri arasındakı nüfuz əlaqəsi də buna bənzərdir. Fransanın Əlcəzair, Suriya və ya Livanla əlaqəsinin qanuni zəmini tarixlə əlaqədardır. Şübhəsiz, əgər İngiltərə öz tarixini unudub imperiya olduğu vaxtları inkar etsəydi, bu cür nüfuz əldə edə bilməzdi. Eyni şəkildə, Fransa da keçmişindən üz çevirsəydi, bu gün Şimali Afrika və Yaxın Şərq siyasətinə nüfuzunu davam etdirə bilməzdi.

Tarixin bu qədər təsirli strateji zəmin olması, şübhəsiz ki, Türkiyə üçün böyük üstünlükdür. Çünki Türkiyə bu gün qonşu dövlətlərin əksəriyyətini və hələ bir çox dövləti beş yüz il boyu idarə etmiş imperiyanın varisidir.

Bu gün böyük dövlətlərin Osmanlı tarixi ilə bağlı tədqiqatlar aparması və bu sahəyə xüsusi büdcə ayırması əslində bizə çox mühüm şeyi göstərir. Osmanlı dövləti böyük dövlət olmağın sirrini tapmış və bu sirri 600 illik ömrünün sonuna qədər mühafizə etmişdi. Qərbin Osmanlı ilə bağlı heç cür qavraya bilmədiyi həqiqət isə müasir siyasi üslubla desək, Osmanlı imperiyasının “moralpolitik” (əxlaqi) strateji nöqteyi-nəzərə sahib olması idi. Müstəmləkəçi güclər isə daima “realpolitik” (qatı realist) dünyagörüşü ilə hərəkət etmişdilər. Buna görə də qısa müddətdə çox mənfəət əldə etmək üçün ölkəni uzun müddət qarışıqlıq və qeyri-sabitliyə sürükləyən siyasət yeritməkdən çəkinməmişdilər. Osmanlı isə hökmran olduğu torpaqlarda qarışıqlığa və intizamsızlığa

heç cür yol verməmişdi. Daima Quran əxlaqının əmr etdiyi sülh və əmin-amanlıq mühitini, ədaləti və tolerantlığı tətbiq etməyə çalışmışdı.

İngilis və fransız müstəmləkəçiliyinin realpolitik məntiqi nəticəsində ələ keçirdikləri torpaqlarda çox qısamüddətli hökumət qura bilmişdilər. Osmanlı fəth etdiyi yerlərdə sadəcə torpağı deyil, qəlbləri də fəth etməyi bacarmışdı, lakin ingilis və fransız müstəmləkəçilər getdikləri hər yerdə hərəkətləri ilə yerli xalqın nifrətini qazanmışdılar. Eyni şəkildə hakim olduqları torpaqlarda "nizam-intizamı təmin etmək" kimi məqsədi olmayan digər güclər getdikləri hər yerə sülh və əmin-amanlıq əvəzinə, qarışıqlıq və anarxiya gətirmişdilər. Bu gün tətbiq olunan bənzər strategiyalar qədim Osmanlı torpaqlarına sabitlik və əmin-amanlıq gətirmir.

Bundan əlavə, osmanlılar digər millətlər kimi müstəmləkəçilik təfəkkürü ilə bu torpaqları işğal etməmiş, heç bir zorakılıq və təzyiqə əl atmadan dinlərini yaymağı və müsəlman dünyasını gücləndirməyi qarşılarına məqsəd qoymuşdular. Avropalı güclər ələ keçirdikləri torpaqlarda yaşayan xalqları özlərindən aşağı səviyyəli, bir növ ikinci dərəcəli insanlar kimi dəyərləndirib qəddar və zalım siyasət yeridir, osmanlılar isə sahib olduqları Quran əxlaqına görə hər millətdən olan insana qarşı ədalətli, tolerant və mərhəmətli davranırdılar.

Avropalı dövlətlər bu ölkələrin bütün yeraltı sərvətlərini ələ keçirib xalqlarını yoxsullaşdırmış, Osmanlı və ya Səlcuqlu dövlətini idarə edən türklər getdikləri ölkələrə zənginlik, rifah və mədəniyyət aparmışdılar. Fəth edilən ölkələrdə məscidlər, mədrəsələr, karvansaraylar, körpülər tikdirmiş, su kanalları çəkdirmiş, məhv etməyi, dağıtmağı deyil, yenidənqurmanı hədəfləmişdilər. M. Baudierin "Türklərin din tarixi" (Historie de la Religion des Turcs) adlı əsərində *"Türklər mərhəmət, şəfqət və insanlara yardım etməkdə bütün millətlərdən, hətta xristianlardan da üstündürlər"*[13] sözləri ilə bildirdiyi kimi, türk milləti fəth etdiyi torpaqlarda yaşayan insanlara gözəl əxlaqları ilə nümunə olmuşdur.

Əvvəlcədən bildirdiyimiz kimi, müsəlman türklər fəth etdikləri ölkələrin xalqlarına, həyat tərzlərinə, inanclarına və dünyagörüşlərinə hörmət etmişdilər. Fəth etdikləri yerlərdə yaşayan insanların onlara Allahın əmanəti olduğunu düşünən, əsir aldıqları insanlara belə insanpərvərliklə yanaşan türk sultanlarının öhdəlikləri arasında bu xalqları himayə etmək, kimsənin onlara zülm etməməsini təmin etmək vardı. Allah "İnsan" surəsinin 8-ci ayəsində möminlərin özləri ehtiyac içində olarkən belə yeməyi əvvəlcə əsirlərə yedirdiklərini bildirir. Bu, İslam əxlaqına uyğun yaşayan müsəlman hökmdarların fəth edilən torpaqlarda yaşayanlara qarşı bütün davranışlarını formalaşdıran çox mühüm əxlaqi xüsusiyyət olmuşdur. Belə ki, düşmənlərindən qaçaraq Osmanlı imperiyasına sığınan İsveç kralı XII Şarlın (Dəmirbaş Şarl) bir yaxınına yazdığı məktubdakı sözləri də müsəlman türk millətinin insanpərvər, gözəl əxlaqlı münasibətini ifadə edir:

> *Şəfqətin, comərdliyin, əsalətin, nəzakətin əsiriyəm. Türklər məni məhz bu cür almaz iplə sarıdılar. Bu qədər şəfqətli, bu qədər nəzakətli millətin arasında azad əsir kimi yaşamaq bilsəydin nə qədər şirindir...*[14]

Girdikləri hər torpağa mütləq əmin-amanlıq və asayiş aparan müsəlman türklər əsasən özlərindən əvvəlki xristian idarəçilərin təzyiqindən və zülmündən sıxıntı çəkən xalq tərəfindən coşğun sevgi və hörmətlə qarşılanmışlar. Osmanlı dövləti qurulduğu dövrdən etibarən fəth etdiyi torpaqlardakı xristian təbəə ilə həmişə yaxşı əlaqələr qurmuş, onların rəğbətini qazanmışdır. Məsələn, Bursanın fəthindən sonra şəhəri niyə təslim etdiklərini soruşan Orxan Qazinin rumlardan aldığı cavab çox təəccüblüdür:

> *Sizin dövlətinizin gündən-günə yüksəldiyini və bizim dövlətimizi ötüb keçdiyini anladıq. Atanızın hakimiyyəti altına daxil olub razı qalan kəndlilərin bizi artıq axtarmadıqlarını gördük və biz də bu rahatlığı istədik.*[15]

Osmanlıların Anadoluda olduğu kimi, Rumelidə və fəth etdikləri digər torpaqlarda da xristianların həyat və idarə tərzinə qarışmamaları, ağır vergilər altında əzilmiş xalqın yükünü yüngülləşdirmələri, mövcud qanunlar çərçivəsində heç bir yerli idarəçinin istədiyi kimi hökmranlıq etməsinə izin verməmələri yerli xalqın onlardan razı qalmasına səbəb oldu. Osmanlı dövləti himayəsi altındakı hər kəsin hüququnu zəmanət altına almışdı.

Qərb tarixçi və siyasətçilərinin qələmə aldığı əsərlərdə də Türk-İslam əxlaqının gətirdiyi ədalət və hüquq anlayışı təriflənmiş, müasiri olan digər sistemlərlə müqayisə edilərək Türk-İslam əxlaqının üstünlüyü dilə gətirilmişdir. Bunlardan ingilis tarixçi F. Dauni (F. Downey) “Böyük Türk, Möhtəşəm Süleyman” (The Grand Turc, Suleyman the Magnificent) adlı əsərində türklərin ədalətinə və mərhəmətinə sığınan insanlardan belə bəhs edir:

> *Bir çox xristian ədaləti ağır və qeyri-sabit olan xristian ölkələrindəki yurdlarını qoyub Osmanlı dövlətinə sığınırdılar.*[16]

Fransız tarixçi Fernar Qrenar (Fernard Grenard) isə türk dövlətçiliyinə olan heyranlığını bu sözləri ilə ifadə edirdi:

> *Osmanlı hökumətinin fəth edilən məmləkətlərə qarşı həddindən artıq liberal olduğunu qeyd etməmək olmaz. Türklər bu məmləkətlərin əhalisinin dillərinə, dinlərinə, hətta bəzən daxili idarəetmə sisteminə qarışmırdılar.*[17]

Məşhur tarixçi Oskar Kollinq (Oskar Kolling) isə Birinci Dünya Müharibəsindən sonra Balkan yarımadası xalqlarının düşdüyü vəziyyətdə Osmanlı hökumətinin üstün ədalət və hüquq anlayışını belə tərif edir:

> *Bu qədim həqiqəti – Osmanlı-Türk ədalət sistemini – Avstriya-Macarıstan imperiyasının süqut etdiyi 1918-ci ildə qonşu millətlər bizə yenidən xatırlatdılar. XVI əsrdən 340 il sonra humanizm dövründə Macarıstan sərhədində eyni hadisə baş verdi.* ***Lakin müqayisə etdikdə XVI əsr türk hökmdarlarının zəif xalqın hüququnu qoruma cəhdləri qarşısında baş əymək istəyirik.***[18]

Kollinq bu sətirlərin ardınca dövrün Avropa dövlətləri ilə Türk dövləti arasındakı anlayış fərqini də belə ifadə edir:

> *... Avropada sülh dövründə belə inkviziya məhkəmələri və edam kürsüləri fəaliyyətdə idi. Xüsusilə muzdlu əsgərlərdən təşkil edilmiş ordu toplandıqda xalq bütün malı ilə birlikdə zülm alətinə çevrildi. Onlar heç bir vicdan əzabı çəkmədən öz vətəndaşlarını soyur, əzir, öldürürdülər. Halbuki türk hökmdarları həqiqətən xalqın həyatı ilə maraqlanırdılar. Göndərdiyimiz vəsiqə surətləri də şübhəyə yer qoymadan bunu göstərir.*[19]

Şübhəsiz ki, Osmanlının əsrlər boyu ədalət anlayışında heç bir dəyişiklik olmamasının ən əsas səbəbi bu anlayışı Quran əxlaqından öyrənməsi və Qurana olan bağlılığıdır. Quranda tərif edilən ədalət anlayışı müsəlmanları, qarşı tərəfə qəzəblənsələr də, qəzəblərini cilovlayıb ədalətli olmağa sövq edən anlayışdır.

Ayədə belə buyurulur:

> **Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə surəsi, 8)**

Ona görə bu gün sözügedən ərazidə yaşayan millətlərin hamısı türklərin ədalətinə, tolerantlığına və onlar üçün təmin etdiyi sülh mühitinə şahid olublar. Bu vəziyyət hər dindən və millətdən olan insanın türklərin idarəçiliyindən razı olmasına səbəb olmuşdur. Dövrümüzdə isə illərdən bəri bu torpaqlarda davam edən müharibə, çaxnaşma və qarışıqlığa görə rahatlığa, əmin-amanlığa və sülhə həsrət qalmış qadınlar, uşaqlar, qocalar yeni “Osmanlı”nın həsrətini çəkirlər.

# Mirasımızdan irəli gələn tarixi məsuliyyət

Buraya qədər təhlil etdiyimiz faktlardan göründüyü kimi, Türkiyə həm coğrafi və strateji mövqeyinə, həm də tarixi mirasına görə Balkan ölkələrinin, Qafqazın, Orta Şərq və Mərkəzi Asiyanın gələcəyində liderliyi üzərinə

götürəcək ölkədir. Milyonlarla insanın həsrətini çəkdiyi sülh və əmin-amanlıq mühitini təmin edəcək zəngin tarixi təcrübəyə malikdir. Coğrafi mövqeyi etibarilə həm asiyalı, həm avropalı, həm də yaxın şərqlidir. Tarixi mirası etibarilə də bütün bu ərazilərdə böyük təsirə və gücə malikdir. Yüzlərlə müxtəlif mədəniyyətin və etnik qrupun yerləşdiyi bu torpaqlarda Osmanlı mirasının varisi kimi söz sahibidir. Belə ki, soyuq müharibədən sonra təsis edilən yeni dünya nizamında, başda Amerika olmaqla, bir çox ölkənin tələbi ilə Türkiyə sözügedən torpaqlarda aktiv rol oynamağa məcbur olmuşdur.

Türkiyənin tarixi mirasına, siyasi, hərbi, iqtisadi potensialına görə bir çox qərb ölkəsi bu bölgədəki strategiyalarının Türkiyəmərkəzli olmasının labüdlüyünü dərk edir. Belə ki, ABŞ-nın keçmiş prezidenti Bill Klinton 1999-cu ilin sonlarında Corctaun Universitetində söylədiyi nitqində bu fikri dəstəkləyir. Bir anda bütün dünya ölkələrinin diqqətini yenidən Türkiyəyə çəkməsinə səbəb olan bu məşhur nitqində Klinton xüsusilə "XX əsrdə Osmanlının süqutu iz qoyduğu kimi, XXI əsrdə də Türkiyənin aparıcı rol oynayacağı" mənasını verən sözləri çox mühüm qənaətə gəldiyinə işarə edir. Klintonun bu sözlərindən "Türkiyə, Avropa, Asiya və Afrikanı əhatə edən milyonlarla km$^2$-lik sahədə dünya siyasətinin mərkəzi olan bir bölgədə söz sahibi ölkə olduğu üçün XXI əsrin formalaşmasında kilid rolu oynayacaq" şəklində nəticə çıxara bilərik (Bill Klinton 1999-cu ilin oktyabr ayında Türkiyə səfəri zamanı TBMM-də söylədiyi nitqində bu fikirlərə yer vermişdir). ABŞ kimi super gücün liderinin Türkiyə üçün XXI əsrdə bu cür diaqnoz qoyması, şübhəsiz, diqqət çəkicidir.

Bu gün sözügedən bölgələrdə əmin-amanlığın bərqərar edilməsinin yeganə yolu Türkiyənin varisi olduğu Türk-İslam əxlaqı ilə yoğrulmuş "Osmanlı millət sistemi"nin hakim olduğu anlayışın formalaşdırılmasıdır. Əvvəlki bölmələrdə ətraflı izah etdiyimiz kimi, Osmanlı millət sistemində dövlətin müdafiəsinə sığınan hər millət və ya etnik qrupa öz inanc və adət-ənənələrinə uyğun yaşamaq hüququ verilir və əsas hüquqları qorunurdu. Türklər istər Balkan yarımadasında, istər Qafqazda, istərsə Yaxın Şərqdə heç bir ölkədə heç kimi dinini və adət-ənənələrini dəyişdirməyə məcbur etməmiş və heç kimə dininə görə zülm etməmiş, kimsəyə xor baxmamışdılar. Hər dindən, məzhəbdən olan vətəndaş istədiyi kimi ibadət etmiş, öz adət-ənənələrini həyata keçirməkdə kimsə digərinə qarışmamışdır. Ona görə də xarici qüvvələr tərəfindən ölkə hücuma məruz qaldıqda bu torpaqlarda yaşayanlar sevərək könüllü surətdə Osmanlı hökumətinin tərəfində olmuşlar. Beləliklə, xarici təhlükəsizlik və iqtisadiyyat başda olmaqla, bir çox sahədə təbii ittifaq əmələ gəlmiş, həm Osmanlı dövlətinin, həm də tabeçiliyindəki xalqların təmin etdiyi sağlam birlik qurulmuşdur.

Avstriyalı türkoloq Anton Komelers Şendinger (Anton Comelers Schaendinger) də türklərin dövlətçilik anlayışını və bu anlayışın dünyanın bir çox yerinə gətirdiyi rifah və əmin-amanlığın başqa heç bir hökmdarın dövründə təmin edilmədiyini belə ifadə edir:

> *İsgəndər Şərqə və Hində qədər, Dara Şərqdən Qərbə qədər əraziləri tutdu. Çingiz xan Avropanın mərkəzinə at çapdı. Lakin heç biri Osmanlı türkləri kimi digər insanların mədəniyyətinə və din azadlığına hörmət etmədilər. Osmanlılar xariqüladə nizam-intizamla əsrlər boyu qeyri millətlərdən olan insanlarla sülh şəraitində yaşadılar. Ona görə də dörd əsr Avropada qala bildilər.*[27]

Anton Şendinger kimi türklərə heyran qalan başqa bir tarixçi yunan əsilli Mişel de Qrisin (Michel de Greece) sözləri isə çox diqqətçəkicidir. Osmanlının Balkan yarımadasından geri çəkilməsi ilə başlayan çətin, sıxıntılı günlərə bəlkə də ulu babalarının şəxsən şahid olduğu Qris bugünkü qarışıqlığı nümunə göstərərək bu torpaqlar üçün yeganə həll yolunun Osmanlı kimi idarəçilik sistemi olduğunu izah edir:

> ***Osmanlı dövlətinin süqutuna görə çox kədərlənirəm. Çünki Osmanlı dövləti dünyanın müvazinətini saxlayan qüvvə idi və sevilsə də, sevilməsə də, Osmanlının süqutundan etibarən Balkan yarımadasında və Yaxın Şərqdəki çaxnaşmalar bitmir.***[28]

Balkan yarımadasında yaşayan, bu torpaqların təbiətini və keçmişini yaxşı bilən bir tarixçinin bu qənaətə gəlməsi çox mühümdür.

Türkiyə eynilə Osmanlının etdiyi kimi, Balkan yarımadası və Yaxın Şərqdəki müxtəlif etnik qrupları və dinləri müdafiə edən strategiya qurmalıdır. Bu strategiyanın əsasını Türk-İslam mədəniyyətinin və köklü

sivilizasiyamızın yenidən kəşf edilməsi təşkil etməlidir. Belə ki, bu torpaqlarda siyasi cəhətdən olmasa da, mədəni cəhətdən türk hakimiyyəti hələ də davam edir, xüsusilə Balkan ölkələrində və Qafqazda müxtəlif millətlərə mənsub bir çox müsəlman özünü türk-osmanlı hesab edir.

Bir çox tarixşünas və siyasətçi də bu faktı qəbul edir və məqalələrində bu cəhətə diqqət çəkirlər. Bu şəxslərdən biri bütün dünyada məşhur olan Yaxın Şərq üzrə mütəxəssis Prof. Dr. Edvard Saiddir. Qüdslü xristian ailəyə mənsub olan Edvard Said İsrail *“Ha’aretz”* qəzetində dərc olunan bir müsahibəsində Yaxın Şərqdə daimi sülhün bərqərar edilməsi üçün “Osmanlı Millət Sistemi”ni məsləhət görmüşdür.[29] Ari Şavitin (Ari Shavit) aldığı bu müsahibədə Osmanlı Millət Sistemini labüd hesab edən Edvard Said bu məsələdə haqlıdır. Çünki tarix boyu Yaxın Şərq və Balkan yarımadasında ən uzunömürlü hökumətlər Osmanlı dövründə qurulmuş, romalıların belə təmin edə bilmədiyi daimi sülh və birlik müsəlman türklər tərəfindən əsrlər boyu qorunmuşdur.

Prof. Dr. Edvard Saidin Yaxın Şərqdə sülhün bərqərar olunması üçün göstərdiyi həll yolunu məşhur tarixçi Ceyson Qudvin (Jason Goodwin) “Nyu York Taymz”dakı (New York Times) “Osmanlıdan öyrənəcəklərimiz” başlıqlı məqaləsində Balkan yarımadası üçün məsləhət görür. Osmanlının Balkan yarımadasında din, dil və etnik fərqlərin çox olmasına baxmayaraq, hökmranlıq etdiyi XIV əsrdən XIX əsrə qədər heç vaxt hüquqları məhdudlaşdırmadığını və bu şəkildə sabitliyi və nizam-intizamı təmin etdiyini söyləyən Qudvin bu gün bu bölgədə sülhü bərqərar etmək üçün buraya hərbi qüvvələr toplamağı vacib bilən qərb dövlətlərinin Osmanlıdan öyrənəcəkləri çox şey olduğunu ifadə edir.[30]

Məlumdur ki, təqribən son 50 il boyu dünyanın ürəyi “Osmanlı hinterlandı” adlandırılan Yaxın Şərqdə döyünür. Əgər bu bölgədəki məsələyə qarışan ölkələr bu gün dünyanın gələcəyində bu qədər həyati əhəmiyyətə malikdirlərsə, onda Osmanlının varisi olan Türkiyə cümhuriyyətinin də bu prosesdə kilid rol oynaması labüddür.

Bunu da qeyd etməliyik ki, bu kitabda izah edilən strategiya Osmanlı dövlətinin yenidən qurulması deyil. Əsas odur ki, Osmanlı millət və dövlət anlayışının hakim olduğu, insanların dost və qardaş kimi yaşadığı sülh və əmin-amanlıq şəraitinin yenidən təmin olunsun, güclü iqtisadi və siyasi birlik təsis edilsin. Çünki Osmanlı idarəçiliyi və təcrübəsi qarşıdurmaların mərkəzinə çevrilmiş bu bölgəyə sülhün və əmin-amanlığın gətirilməsinin mümkün olduğunu bizə göstərir. Bu gün birlik qurmaq üçün atılan konkret addımlar bölgə dövlətləri tərəfindən də qəbul ediləcəkdir. Habelə, bu birlik dünyanın ən qabaqcıl mədəniyyətini, ən zəngin torpaqlarını və üstün sivilizasiyasını ehtiva edən XXI əsrə damğasını vuracaq birlik olacaqdır. Bu birliyə liderlik edən yeganə millət isə, şübhəsiz ki, Osmanlının sələfi olan türk millətidir.

# TÜRK DÜNYASINDA MÖVCUD VƏZİYYƏT

Türk dünyası dedikdə təkcə Orta Asiyada SSRİ-nin süqutundan sonra qurulan türk dövlətlərini düşünmək yanlış olar. Çünki Türk dünyası “Adriatik dənizindən Çin səddinə” ifadəsi ilə təsvir edilən çox geniş anlayışı ifadə edir. Bu geniş coğrafiyada yaşayan müxtəlif etnik mənşəli xalqlar tarix boyu daima türk-İslam əxlaqının çətiri altında toplanmışlar. Özbək, qazax, uyğur, tatar, çərkəz, abxaz, bosnyak, çeçen kimi bütün xalqları bir idealda toplayan sözügedən torpaqlarda hələ də varlığını davam etdirən türk-İslam mədəniyyətinin mirasıdır.

Osmanlı dövlətinin siyasi hüdudları daxilində bu gün onlarla müstəqil dövlət və bunların hər birində Osmanlı mədəniyyətinin izlərini daşıyan yüzlərlə əsər və dərin mədəni miras var. Üç qitəyə yayılan Osmanlı nizamı XX əsrdə bəzi xarici müdaxilələrlə siyasi cəhətdən tənəzzül etmişdir. Lakin aradan bir əsr keçməsinə baxmayaraq, Osmanlının tarixdən silinməsi ilə əmələ gələn boşluğu hələ də hər hansı qüvvə doldura bilmir. Bu günə qədər Fransa, İngiltərə, Amerika, Rusiya kimi xarici qüvvələr tərəfindən Osmanlı hinterlandına müxtəlif müdaxilələr edilmişdir. Bu ölkələr Osmanlının izini silmək və bu bölgədə hakimiyyəti ələ keçirmək üçün cürbəcür yollarla mübarizə aparmışlar. Lakin bu bölgələrə yad olan qüvvələrin qədim Osmanlı torpaqlarında sülhü və əmin-amanlığı təmin etmələri, güclü dövlət qurmaları mümkün olmamışdır. Kukla hökumətlər, masa arxasında xəritələr, süni konfliktlər, embarqolar heç bir dövrdə uğurlu nəticə verməmiş, bu ölkələr sanki orqanizmə yad maddə kimi həmişə kənar edilmiş və heç vaxt bölgə xalqlarının dəstəklənməmişlər.

Osmanlı imperiaysının siyasət səhnəsindən silinməsi ilə başlayan qarışıqlıq təxminən bir əsrdir davam edir. Bu bölgədə yaşayan əhali uzun illərdir müharibə və qarşıdurmalardan əziyyət çəkir. İki dünya müharibəsinə şahid olan və bu müharibələrlə birlikdə aclıq, köç və epidemiyalarla üzləşən əhalinin əksəriyyəti müharibələrdən sonra kommunist rejimlərin təzyiqinə və zorakılığına məruz qalmışdır. Soyuq müharibə dövrünün sona çatması ilə başlayan etnik qarşıdurmalar nəticəsində isə daha çox əziyyət çəkmişdir. 1990-cı ilin əvvəllərindən etibarən Balkan yarımadası və Qafqazda, başda qadınlar, uşaqlar və yaşlılar olmaqla, məsum xalq müharibələrdən və qanlı döyüşlərdən əziyyət çəkir. Yaxın Şərqdə isə işğalçı İsrail qüvvələrinin zülmü 50 ildən artıqdır ki, fasiləsiz davam edir.

Bu problemlərin tezliklə həll edilməsi və Osmanlı coğrafiyasında yenidən sabitliyin təmin edilməsi üçün ilk addım kimi bölgədəki mövcud vəziyyəti yaxşı anlamaq lazımdır. Çünki istər Yaxın Şərq, istərsə də Qafqaz və Balkan ölkələri coğrafi və strateji mövqelərinə görə bir çox ölkənin diqqət mərkəzindədir. Ona görə siyasi və iqtisadi mənfəət yaxşı dəyərləndirilməli, həll yolları və hərtərəfli strategiya müəyyən edilməlidir. Problemlərin düzgün müəyyən edilməsi həll yolunu tapmaq üçün əsas mərhələdir. Ona görə də sözügedən bölgələrdə son vəziyyəti ümumi təhlil etmək vacibdir.

# BALKAN ÖLKƏLƏRİNİN VƏZİYYƏTİ

***"İgidlərim, bu gün sizin sevginizlə bu Kosova meydanı titrəyir, Allahın izni ilə, müzəffər şəkildə dalğalanacaq şanlı bayrağımızın Macarıstanın içinə doğru hərəkət etməsini bundan sonra heç bir düşmən həmləsi durdura bilməyəcək."[31]***

***Murad Xudavəndigarın Kosova meydan müharibəsində əsgərlərinə söylədiyi nitqdən***

Balkan yarımadasında bu günə qədər baş verənlər və gələcəkdə ehtimal edilən hadisələr haqqında doğru fikir əldə etmək və hadisələri düzgün qiymətləndirmək üçün Türkiyənin tarixən bölgə ilə əlaqələrini doğru müəyyən etmək lazımdır. Bunun üçün türklərin Balkan ölkələrinə gəlişi qədər bu torpaqlardan nə şəkildə və nə məqsədlə çıxarıldığını da yaxşı anlamaq lazımdır.

Süleyman paşanın rəhbərlik etdiyi Osmanlı ordusunun 1353-cü ildə Çanaqqala boğazını keçib Rum torpaqlarını fəth etməsi ilə türklər Balkan yarımadasına ilk addımı atdılar. 1389-cu ildəki Kosova döyüşü isə bir tərəfdən serbləri tarixi məğlubiyyətə məhkum edərkən digər tərəfdən Balkan yarımadasında Osmanlının yenilməz güc olduğunu göstərdi. 1521-ci ildə Qanuninin Belqradı ələ keçirməsi ilə, demək olar ki, bütün Balkan yarımadası türklərin hakimiyyəti altına keçdi. Ancaq bu, türklərin Balkan torpaqlarında ilk hakimiyyəti deyildi.

Əslində ilk dəfə bu əraziyə gələn türklər hunlar idi. Ancaq Balkan yarımadasına Bizansı məğlub edərək Qərbi Roma tərəfdən daxil olan hunlar bu bölgədə uzunmüddətli hakimiyyət qura bilməmişdilər. Hunlardan sonra avar türkləri Balkan yarımadasında geniş torpaqlar fəth edərək təqribən 250 il davam edən dövlət qurdular. Ancaq avarlar VIII əsrin sonunda xristianlığı qəbul edərək slavyanlaşdılar və tarixdən silindilər. Avarlardan sonra köçəri türk tayfalarının Balkan yarımadasına axını davam etdi. Ancaq zaman ərzində slavyanlar arasında assimilyasiyaya məruz qaldılar.[32]

Osmanlılar isə heç vaxt assimilyasiyaya məruz qalmayıblar. Əksinə, fəth etdikləri hər bölgəyə öz kimliklərini gətiriblər. Bunun ən böyük səbəbi İslam dinidir. Türklər güclü sivilizasiyaya malik olmadıqlarına görə fəth etdikləri torpaqlarda həm hərbi, həm də mədəni cəhətdən davam gətirməmişdilər. Halbuki İslamın qəbul edilməsindən sonra türklər "assimilyasiyaya uğrayan" deyil, "assimilyasiya edən" millətə çevrildi. Buna dair ən bariz nümunələrə Osmanlı tarixində rast gəlirik.

Osmanlılar İslam sayəsində Balkan torpaqlarında qala bildilər. Balkan yarımadasında Sultan Süleyman Qanuninin Belqradı ələ keçirməsi ilə möhkəmlənən Osmanlı hökuməti bölgədəki müxtəlif xristian xalqların zaman ərzində öz istəkləri ilə İslam dininə qəbul etməsinə səbəb oldu. Habelə, Osmanlı hökuməti bölgəyə əsrlərlə davam edən sabitlik və sülh gətirdi. Din, dil və milli cəhətdən çox qarışıq quruluşa malik olan Balkan torpaqlarında Osmanlı idarəçilik metodu bütün bu fərqləri qaynaşdırma prinsipinə əsaslanırdı. Balkan yarımadasının müxtəlif mədəni irsə malik xalqları ancaq Osmanlı dövründə birlikdə sülh və əmin-amanlıq içində yaşadılar.

Bu tarixi həqiqət Osmanlı arxivlərindəki sənədlərdə öz əksini tapır. Prof. İsmet Miroğlunun "Türklərdə insanpərvər dəyərlər və insan haqları" adlı əsərində isnad etdiyi sənədlər Balkan xalqlarının Osmanlı

hökumətindən razı olduğunu göstərir. 12 fevral 1867-ci ildə yazılmış bir sənəddə bulqar millətinin Osmanlı hökumətindən razı olduğu belə ifadə edilir:

> *Bolqar millətinin mənsubları beş yüz ildən etibarən Osmanlının hakimiyyəti altında xoşbəxt yaşayır. Bu müddət ərzində mal, can və dinləri fitnə-fəsadçıların və pisliyin tərəfdarlarının təcavüzündən mühafizə edilmişdir. Halbuki digər ölkələrdə yaşayan gücsüzlər və kasıblar varlıların hücumuna, zülmünə, habelə hər cür haqsızlığa məruz qalırlar. Lakin Osmanlının hakimiyyəti altında yaşayan güclülər tərəfindən gücsüzlərə heç bir şəkildə əziyyət olunmamış, güclülər və zəiflər dövlətin bəxş etdiyi ədalət və haqlardan eyni nisbətdə faydalanmışlar. Osmanlının hakimiyyəti altındakı xristianlar arasında din və məzhəb fərqi qoymadan hamısına bərabər münasibət göstərilmişdir.*[33]

Sözügedən sülh və sabitlik XIX əsrin əvvəlində qərb qüvvələri tərəfindən bu torpaqlarda azadlıq hərəkatlarına təşviq edərək alovlandırmasına qədər davam etdi. XIX əsr boyu xarici qüvvələrin təhriki ilə bölgədəki qeyri-müsəlman təbəə arasında qiyamlar başladı. Qiyamların ilk siyasi nəticəsi Yunanıstanın 1829-cu ildə müstəqilliyini elan etməsi oldu.

Başda serblər olmaqla qeyri-müsəlman xalqlar arasındakı qiyamlarda Rusiyanın istiqamətləndirdiyi panslavizm hərəkatı güclü idi. Məlum olduğu kimi, bu cərəyan slavyan xalqının üstünlüyünü, mədəni və siyasi cəhətdən birlikdə hərəkət etməli olduğunu irəli sürürdü. Xüsusilə Osmanlı torpaqlarında yaşayan slavyan mənşəli xalqların milliyyətçilik hissləri qabardılaraq Osmanlının əleyhinə fəaliyyət göstərməyə təşviq edilirdilər.

Bu cərəyandan təsirlənən bəzi xalqlar da daha rahat həyat ümidi ilə Rusiyaya köçürdü. Ancaq qısa müddətdə nə qədər çox yanıldıqlarını anlamağa başladılar. Panslavizm təbliğatından təsirlənərək Rusiyaya köçən bolqarların 30 yanvar 1862-ci ildə Osmanlı dövlətinə qayıtmaq üçün padşaha yazdıqları bir məktub peşmançılıqlarını açıq şəkildə göstərir. Bu məktub bir tərəfdən bolqarların Osmanlı torpaqlarından köçdükləri üçün dərin peşmançılığını ifadə edir, digər tərəfdən Osmanlının qərb qüvvələri tərəfindən təmin edilə bilməyən ədalət və dövlətçilik anlayışını göstərir:

> *Əcdadımız Osmanlının hakimiyyəti altında rahat və hər cür nemət və ədalətlə dolu həyat yaşadığımız halda, biz Rusiyaya getməklə, təəssüf ki, bir tələyə düşdük. Saf insanlar olduğumuz üçün əleyhimizdə planlaşdırılan bu hərəkatın nəticəsini düşünmədik və bu işi qəsdən etmədik... Gecə-gündüz peşmançılıqdan doğan göz yaşları tökürük. Lakin burada heç kim üzümüzə baxmır... Bizim kimi aldadılan bolqar həmyerlilərimizlə birlikdə bağışlanaraq yenidən Osmanlı torpaqlarına qayıtmağımızı xahiş edirik.*[34]

Osmanlı dövründəki sabitlik və bütövlük bölgəyə sülh gətirmiş, həm bölgə xalqının həyat səviyyəsini yüksəltmiş, həm də xarici qüvvələrin hücumlarına qarşı bütün millətləri ortaq müdafiə üçün birləşdirmişdi. Buna görə istər Osmanlıdan, istərsə də Balkan xalqlarının birliyindən çəkinən xarici qüvvələr uzun müddət bu bölgəyə yaxınlaşmamışdılar.

Ancaq əsrin son rübündə Rusiyanın və qərb ölkələrinin torpaq ehtirasları yenidən gücləndi. 1877-1878-ci illərdə Osmanlı-Rus müharibəsindən sonra 1878-ci ildə təşkil olunmuş Berlin konqresi ilə Balkan yarımadasındakı Osmanlı torpaqlarının böyük hissəsi əlindən çıxdı. Bolqarıstanın böyük hissəsi Osmanlı hökumətindən ayrıldı. Ruslar Bessarabiyanı ələ keçirdilər. Serbiya, Qaradağ və Rumıniya müstəqil dövlətlər oldular. Bosniya və Hersoqovina isə Osmanlının hakimiyyəti altında qalmaqla "nəzəri cəhətdən" Avstriya-Macarıstanın torpaqlarına çevrildi. Digər tərəfdən, Kipr və Süveyş də ingilislərə verildi. Berlin konqresindən əvvəl və sonra Osmanlının parçalanması və bölüşdürülməsi dövrün Avropa ölkələrinin və Rusiyanın xarici siyasətinin hədəfi oldu. Qərb ölkələri üçün Avropa ilə Asiya arasındakı strateji Osmanlı bölgələri xüsusi əhəmiyyət daşıyırdı. Bu məqsədlə müxtəlif dil, millət, din və etnik mənşədən ibarət Balkan xalqlarını bəzi milliyətçi xəyallara salıb təşviq etmək heç də çətin olmadı. Osmanlı dövründə qaynayıb-qarışmış, sakit həyat yaşayan bu xalqlar – serblər, bolqarlar, yunanlar – müxtəlif təşviqat yolları ilə separatçı və partizan qruplara çevrildilər.

Əslində Balkan xalqları qısa müddətdə Avropa dövlətlərinə və ruslara güvənməklə ən böyük səhvlərindən birini edirdilər. Çünki Osmanlının hakimiyyətindən çıxmaqla müstəqil və güclü dövlətə çevriləcəklərini güman edən Balkan xalqları üçün əsl problemlər yeni başlayacaqdı. Eynilə Osmanlıdan əvvəl olduğu kimi, Balkan xalqları yenidən parçalanacaq və illərlə birlikdə, dostcasına yaşayan icmalar bir-birilə döyüşməyə başlayacaqdı. Balkan ölkələrinin Osmanlıya qarşı başladıqları Birinci Balkan müharibəsindən sonra öz aralarında anlaşılmazlığa düşüb İkinci Balkan müharibəsinə başlamaları bu tarixi həqiqətin ən açıq sübutu olacaqdı.

Birinci Dünya Müharibəsindən sonra Avropa dövlətlərinin masa arxasında müəyyən etdikləri süni sərhədlərə malik dövlətlər yaxınlaşan böyük fırtınanın xəbərçisi idi. İkinci Dünya Müharibəsində tamamilə alman və italyan ordularının işğalı altında qalan və daxili müharibələrlə çalxalanan Balkan ölkələri müharibədən sonra kommunist sovet rejiminin idarəsinə daxil edildilər. Kommunist hökumətlərin tabeçiliyində illərlə təzyiq, zorakılıq və işgəncəyə məruz qalan, dinlərinə maneçilik törədilən Balkan millətləri çox əziyyət çəkdi. Kommunist rejimin diktator idarəçiliyi ilə pərdələnən etnik qarşıdurmalar bu rejimlərin süqutu ilə yenidən başladı.

# Sonu olmayan döyüşlərin mənbəyi

Balkan ölkələrinin vəziyyətini dəyərləndirmək üçün bölgədəki Türk-İslam tarixi ilə bərabər bölgənin strateji və coğrafi əhəmiyyətini də nəzərdən keçirmək lazımdır. Əksər hissəsi dağlıq və qayalıqlardan ibarət olan, dərin dərələrlə parçalanmış, sıx bitki örtüyünə malik Balkan yarımadasının coğrafi quruluşuna görə nəqliyyat və rabitə imkanları zəif olmuşdur ("Balkan" sözü "dağlıq bölgə" deməkdir). Nəqliyyat və rabitə zəifliyi bir-birinə qonşu olmalarına baxmayaraq, mədəni cəhətdən bir-birindən çox uzaq, hətta bir-birinə düşmən xalqlar meydana gətirmişdir. Etnik və mədəni fərqlər də düşmənçiliyi artırmış, Balkan yarımadasını qeyri-sabitliyə sürükləmişdir. Balkan yarımadasında əsrlər boyu yüzlərlə dövlətin qurulmasının və süqutunun ən mühüm səbəblərindən biri mühafizəkar və qapalı Balkan mədəniyyətidir.

Qarşıdurmaların alovlanmasının kökündəki səbəb isə müstəqilliyini elan edən ölkələrdə bir-birinə düşmən olan və birlikdə yaşamaq istəməyən milli azlıqlar idi. Balkan yarımadasındakı heç bir dövlət etnik və dini cəhətdən eynicinsli deyil. Bu mürəkkəb vəziyyəti belə izah edə bilərik: Balkan yarımadasındakı siyasi xəritə ilə etnik xəritə arasında böyük fərqlər var. Demək olar ki, heç bir qrup – qaradağlılar və slovaklar istisna olmaqla – eyni dövlətin sərhədləri daxilində yaşamır. Məsələn, Albaniyanın siyasi sərhədləri ilə albanların yaşadıqları ərazilərin "toqquşma" nisbəti təxminən 50%-dir. Albanların təxminən yarıdan çoxu Albaniyanın sərhədlərindən kənarda – Kosovada və Makedoniyada yaşayır.

Serblərlə Serbiya arasında da buna bənzər vəziyyət var. 10 milyondan çox əhalisi olan Balkan yarımadasının ən böyük etnik qruplarından biri olan serblər Serbiyadan kənarda iki ölkədə də - Xorvatiya və Bosniya və Hersoqovinada yaşayırlar. Digər tərəfdən, Serbiya torpaqlarında yaşayan insanların 15%-dən çoxu serb deyil, özlərini serblərə "düşmən" hesab edən albanlar və Sancakdakı slavyan müsəlmanlardır.

Balkan yarımadasındakı hansı ölkəni təhlil etsək, oxşar müxtəlifliklə qarşılaşırıq. Bolqarıstanda türklər, pomaklar (müsəlman bolqarlar) və digər milli azlıqlar əhalinin 15%-ni təşkil edir. Makedoniyanın əhalisinin 65%-i makedoniyalılardan ibarətdir, ölkədə 22% alban, 4% türk və başqa milli azlıqlar yaşayır.

Yunanıstanın qərbi Trakiya bölgəsində 120 minə yaxın türk, şimal bölgələrində slavyan-makedon milli azlıq yaşayır. Bosniya və Hersoqovinada əhalinin 45%-i müsəlman, 30%-i serb, 17%-i isə xorvatdır.

Əlbəttə, bir ölkə daxilində müxtəlif etnik və ya dini qrupların yaşaması problem deyil. Bu cür müxtəlif millətlər eynilə Osmanlıda olduğu kimi, nəzəri cəhətdən "çoxmillətli, çoxmədəniyyətli" dövlət nizamı və "birlikdə yaşamağa" əsaslanan sosial model çərçivəsində yaşaya bilərlər. Ancaq təəssüf ki, Balkan yarımadasındakı dövlətlərin həddindən artıq millətçi yanaşma tərzləri, qatı ideologiyaları bu modeli tətbiq etməyə imkan vermir.

Bölgədəki dövlətlərin çoxu – başda Serbiya və Yunanıstan olmaqla – eynicinsli etnik və dini cəmiyyət təşkil etmək istəyirlər. Bu, bəzən Serbiyada olduğu kimi "etnik təmizləmə" fəaliyyətlərinə, bəzən də Yunanıstanda olduğu kimi zorakı assimilyasiya siyasətinə yol açır. Bu ölkələrin təzyiq siyasətlərinə israrla davam etdiklərini illərdən bəri baş verən acı hadisələrdən sonra öyrənirik.

# Ədirnədən geridə qoyduqlarımız...

Balkan yarımadasının bu mürəkkəb xəritəsinin çox maraqlı cəhəti isə bu ərazidə Türkiyədən Adriatik dənizinə qədər uzanan Türk-İslam zolağıdır.

Əvvəlcə keçmişə nəzər salaq. 1912-ci ildə baş vermiş Balkan müharibəsinə qədər İstanbuldan Adriatik dənizinə qədər Osmanlı dövlətinin sərhədləri daxilində hərəkət etmək mümkün idi. Bütün qərbi Trakya, Makedoniya, Albaniya və hətta bugünkü Yuqoslaviyanın sərhədləri daxilində qalmış Kosova və Sancak belə Osmanlının hakimiyyəti altında idi. Saloniki Osmanlı imperiyasının ikinci böyük şəhəri idi. Habelə, sözügedən Rum torpaqlarında yaşayan əhalinin də əksəriyyətini türklər və müsəlmanlar təşkil edirdi. Qərbi Trakya və Makedoniyada vaxtilə Anadoludan köçmüş türklər və müsəlman pomaklar, hətta müsəlman slavyanlardan ibarət türk-müsəlman əhali çoxluq təşkil edirdi. Albaniya, Kosova və Makedoniyada yaşayan albanlar da İslam dinini qəbul etdiklərinə görə Osmanlının "xas" təbəəsindən hesab olunurdular.

Bu Osmanlı mirasının Balkan yarımadasında hələ də necə qaldığını görmək üçün İstanbuldan çıxıb Bosniya və Hersoqovinanın şimal-qərbindəki Bixaça səyahət etmək kifayətdir. Türkiyənin sərhədlərindən çıxıb Yunanıstana daxil olduqda türk milli azlığın yaşadığı qərbi Trakya torpaqlarında olacaqsınız. Burada təxminən 120 min türk soydaşımız yaşayır və Yunanıstanın illərlə tətbiq etdiyi assimilyasiya siyasətinə baxmayaraq israrla milli və dini şəxsiyyətlərini qoruyurlar.

Qərbi Trakyadan yuxarıda – cənub-şərqi Bolqarıstanda isə daha çox türklər yaşayır. Bolqarıstanın əhalisinin 9%-ni təşkil edən türklər ölkənin şimal və cənubundakı iki böyük bölgədə yaşayırlar. Cənubi Bolqarıstanda qərbə doğru irəlilədikcə pomak türklərinin sıx yaşadığı bölgələrə yaxınlaşırsınız. Pomaklar az sayda qaraçı ilə birlikdə Bolqarıstanın 13%-lik müsəlman əhalisini təşkil edirlər.

Qərbə doğru bir az da irəliləsəniz, Makedoniyaya çatarsınız. Yunanıstanla Serbiyanın arasında yerləşən və hər ikisini də özü üçün təhlükə hesab edən bu kiçik Balkan dövləti strateji cəhətdən Türkiyə ilə eyni mövqedədir. Habelə, Makedoniyada çox sayda alban və sayları çox olmasa da, seçilən türk milli azlıq yaşayır. Bu iki müsəlman xalq ölkə əhalisinin təxminən 30%-ni təşkil edir.

Bir az da qərbə doğru hərəkət etdikdə Türkiyəyə köçmüş milyonlarla soydaşı, İslam dini və anti-serb, anti-yunan strateji mövqeyi ilə Türkiyəyə yaxından bağlı olan Albaniyaya çatırsınız. Adriatik dənizi sahillərindəsiniz.

Lakin bununla bitmir. Albaniyanın şimalına çıxın, bu dəfə "Serbiyanın daxilindəki Albaniyaya", yəni Kosovaya çatırsınız. Kosovanın əhalisinin 90%-ni təşkil etdiklərinə baxmayaraq, Serbiya hökuməti tərəfindən sistemli şəkildə əzilən bu albanlar müsəlman olduqlarına görə psixoloji cəhətdən Türkiyəyə meyillidirlər. Kosovadan şimal-qərbə doğru irəlilədikdə isə Serbiya ilə Qaradağ arasındakı sərhəd boyu uzanan Sancaq bölgəsinə çatırsınız. 1912-ci ilə qədər Osmanlı torpağı kimi qalmış bu bölgədəki slavyan müsəlmanlar müsəlman şəxsiyyətlərini qoruyub saxlayıblar.

Sancaq ərazisinin qurtardığı yerdə Bosniya başlayır. Bu gün şərqi Bosniya Bosniya-Hersoqovina Federasiyasının serb tərəfini təşkil edən Serbiya Respublikasına aiddir. Ancaq işğal edilmiş bu bölgədən İzzetbeqoviçin "Dayton sazişində" əldən buraxmamaq üçün çox səy göstərdiyi "Qorazde koridoru" vasitəsilə Sarayevoya və oradan da Osmanlı dövlətinin ən ucqar sərhədi olan Bixaça getmək mümkündür.

Ədirnədən Bixaça doğru uzanan bu qurşaq strateji cəhətdən çox mühüm xətt üzrə uzanır. Bu isə təsadüfi deyil, əksinə, hesablanmış və məqsədli şəkildə qurulmuş strategiyadır. Osmanlı hökuməti Balkan yarımadasını

fəth etdikdən sonra bölgədə demoqrafik nizamlama aparmış və bölgədəki mühüm strateji yerlərə müsəlmanları yerləşdirmişdir. Bu müsəlman xalqların bir qismi Anadoludan köç edərək Balkan yarımadasına yerləşdirilən köçəri türkmən tayfaları, bir qismi isə İslamı sonradan qəbul edən yerli (İslamı sonradan qəbul edən, mənşəcə türk olmayan, lakin müsəlman olduğu üçün bölgədə türk qəbul edilən xalqlar) bölgə xalqlarıdır (albanlar, bosnyaklar kimi).

Qısaca desək, Osmanlı dövləti artıq yoxdur, ancaq Balkan yarımadasının bir ucundan digər ucuna qədər uzanan türk-İslam mədəniyyəti onun mirası kimi hələ də yaşayır. Sayları 10 milyona çatan Balkan müsəlmanları Ədirnədən Bixaça qədər uzanan qurşaq boyu yaşayırlar. Bu qurşaqda bəziləri 1878-ci ildən, bəziləri isə 1912-ci ildən etibarən mübarizə aparırlar. Yeganə ümidləri isə bir gün əvvəki  sülhün və əmin-amanlığın yenidən qurulması, güclü birliyin təsis edilməsidir...

# Balkan müsəlmanlarının türk kimliyi

"Türko-İslami" istər Balkan müsəlmanlarının şəxsən özləri, istərsə də onları "düşmən" kimi görən Balkan millətçiləri tərəfindən mənimsənilmiş tərifdir. Bu gün başda serblər olmaqla digər bütün Balkan millətçiləri bosnyakları və albanları, yəni etnik cəhətdən türk olmayan və türkcə danışmayan Balkan müsəlmanlarını "türk" adlandırırlar. Bunun səbəbi isə etnik mənşələrinə baxmayaraq, Balkan yarımadasında yaşayan bütün müsəlmanların xristian xalqlardan ayrı "millət" kimi qəbul edilmələridir. Bu "millət"in adı isə, etnik türklüyü ifadə etməsə də, "türk milləti"dir. Florida universitetindən Balkan tarixçisi Mariya Todorova bu vəziyyəti belə izah edir:

> *Balkan millətçiliyi pravoslav xristianların birliyini parçalayarkən, digər tərəfdən bütöv və sabit müsəlman icması imici meydana gətirmişdir və bunu da "millət" anlayışı çərçivəsində görür. Başqa sözlə, Balkan yarımadasındakı xristian xalqlar öz aralarında millətçilik prinsipinə əsasən ayrı-seçkilik apararkən digər tərəfdən müsəlmanlara sanki bu insanlar eyni millət kimi davranmış və onları bir adla çağırmışlar. Buna ən bariz nümunə Balkan yarımadasındakı bütün müsəlmanların etnik mənşələrinə görə fərq qoymadan "türk" adlandırılmasıdır. Bu, bölgədə hələ də geniş yayılmış anlayışdır.*

Digər tərəfdən, Balkan müsəlmanları da millətçi tərifə uyğunlaşmadıqları və Balkan yarımadasındakı milli dövlətlər tərəfindən təcrid edildikləri üçün özlərini ayrı "millət" hesab edən ictimai şüuru indiyə qədər qoruyub saxlamışlar.[35]

Todorovanın da bildirdiyi kimi, Balkan müsəlmanları üçün din milli mənşədən daha üstündür. Bolqarıstanda vəziyyət belədir: "bolqar müsəlmanları" adlandırılan pomaklar özlərini bolqarlardan daha çox türklərə yaxın hiss edirlər. Bosniyadakı vəziyyət isə daha qabarıqdır. Serblər və ya xorvatlarla eyni etnik mənşəyə malik olan və eyni dili danışan bosnyaklar bu iki xalqla əsla qaynayıb-qarışmamış, daima Osmanlıya meyilli olmuşlar.

Balkan mütəxəssisi Eran Frankel eyni vəziyyətin Makedoniyaya da aid olduğunu vurğulayır. Frankelin fikrincə, "makedoniyalı müsəlmanlar əsla makedoniyalılıq uğrunda İslamı arxa plana atmamış və inkar etməmişlər. Əksinə, dəfələrlə slavyanlıqlarını inkar etmiş və qeyri-slavyan İslam kimliyini mənimsəmişlər."[36] Frankelə görə Makedoniyadakı müsəlman albanlar və ya qaraçılar slavyan kimliyini mənimsəməkdənsə, "türk " adlandırılmağı üstün tuturlar.[37]

Elə buna görə də Türkiyənin Balkan yarımadasındakı qolu olan xalqlar sadəcə bir neçə milyonluq Balkan türkü deyil, sayı 10 milyona çatan Balkan müsəlmanlarıdır. Əksəriyyəti milli mənşə etibarilə qeyri-türk olan və türkcə danışmayan bu insanlar özlərini eyni dildə danışdıqları serblərdən və ya bolqarlardan çox türklərə yaxın hiss edirlər.

Çünki bu insanlar, hər şeydən əvvəl, "osmanlı"dırlar və Türkiyə də Osmanlının yeganə varisidir. Tarixçi Mariya Todorova bu barədə belə deyir:

*Türkiyənin Balkan yarımadasında kompleks təsiri var. Bu təsir, əvvəla, Balkan yarımadasındakı türkdilli əhaliyə istiqamətlənir. Bu xalqın əksəriyyəti Bolqarıstanda yaşayır, qalan hissəsi isə az sayda Yunanıstan, Rumıniya və keçmiş Yuqoslaviyadadır. Ancaq Türkiyənin təsir dairəsi bununla məhdudlaşmır. Eyni zamanda slavyan dilində danışan müsəlmanlar da Türkiyənin təsir dairəsindədirlər.*[38]

Todorova qeyri-türk Balkan müsəlmanlarının özlərini türk adlandırmalarının göstəricisi kimi maraqlı cəhəti vurğulayır: XX əsr ərzində Balkan yarımadasından Türkiyəyə köçən slavyan müsəlmanlar (albanlar da daxil olmaqla) türk kimliyini mənimsəyərək türk xalqının içində assimilyasiyaya uğrayıblar. Todorovanın fikrincə, bu vəziyyət "Osmanlı mirasının türk təsirinə çevrilməsinin açıq göstəricisidir."[39]

Ona görə Türkiyə Balkan yarımadasındakı etnik və dini müxtəlifliyi yaxşı təhlil etməli və bu müxtəliflik çərçivəsində öz tarixi kimliyinə uyğun strategiya müəyyən etməlidir. Bunu edərkən etnik, dini və mədəni dəyərlərin dünya siyasətində günbəgün daha çox əhəmiyyət qazandığını, dünyanın millətlərarası münasibətlərlə səciyyələnəcəyini də nəzərə almaq lazımdır. Habelə, Balkan yarımadası etnos, din və mədəniyyət kimi anlayışların ən təsirli olduğu bölgələrdən biridir. Başqa sözlə, soyuq müharibədən sonra Türkiyə Balkan ölkələrinə baxarkən öz tarixi və mədəni kimliyini ön plana çıxarmalı və buna uyğun strategiya müəyyən etməlidir.

Göründüyü kimi, bütün Balkan ölkələrində əslində etnik cəhətdən "türk" olmadıqlarına baxmayaraq, özlərini "türk" hesab edən və ya buna meyilli olan çoxsaylı müsəlman əhali yaşayır. Bu "fəxri soydaşlarımızı" bizə bu qədər bağlayan ünsür isə türk-İslam əxlaqı və Osmanlı mirasıdır. Belə ki, 1997-ci ilin əvvəllərində Belqraddakı etiraz aksiyalarında iştirakçıların **"Türk hökumətinə həsrət"**, **"Hardadır Türk (Osmanlı) hakimiyyəti altındakı günlər"** şüarlarını nümayiş etdirmələri qərb KİV-lərinin də diqqətini çəkmiş və Türkiyənin bölgədə fəal rolunun labüd olduğunu bir daha vurğulamışdır.[40]

Artıq qərb qüvvələri Balkan yarımadasındakı problemləri həll etməyə güclərinin çatmadığını özləri də etiraf edirlər. Keçmiş Xarici İşlər nazirlərindən biri olan Hikmet Çetin "Zaman" qəzetində nəşr olunmuş bir xəbərdə Qərbin Balkan yarımadası problemini həll etmək üçün düşdüyü aciz vəziyyəti belə ifadə edir:

*1992-ci ildə Bosniya və Herseqovina ilə bağlı toplantı keçirilirdi. Türkiyə də dəvət olunmuşdu. Miloşeviç və Karadziç də orada idi. Mənim yanımda Amerika Xarici İşlər naziri vardı. Yuqoslaviyada yeddi il səfir olmuşdu. Mənə "siz bu cür təhlükəli yerlərdə 500 il necə qalmısınız?" dedi.*[41]

Göründüyü kimi, Balkan ölkələrində daimi sülhün bərqərar edilməsinin yolu türk-İslam mədəniyyətinin dövlətçilik anlayışıdır. Bu gün hər cür texnika və texnologiyaya, hərbi imkanlara malik olan qərb ölkələri bölgədə ancaq hərbi qüvvələri yerləşdirməklə kifayətlənir, lakin bölgə xalqlarının rahatlığını təmin edən asayişi və nizam-intizamı təmin edə bilmirlər. Əksinə, xarici müdaxilələr bölgədə baş verənləri daha da mürəkkəbləşdirir, zülmü artırır.

Buna görə Türkiyə Osmanlının kimliyinə və tarixinə sahib çıxmalıdır. Habelə, bu vəziyyət Türkiyə üçün böyük strateji fürsətdir. "Osmanlı" anlayışı Türkiyənin təsirini sərhədlərindən uzaqlara aparır. Bu, Balkan yarımadasında olduğu kimi Yaxın Şərqə də aiddir.

# YAXIN ŞƏRQƏ SÜLH GƏTİRMƏK

Yaxın Şərq bəlkə də dünya coğrafiyasının ən mürəkkəb, ən problemli və mühüm bölgəsidir. XX əsrin ən dəyərli sərvətinə çevrilmiş neftin yüksək miqdarda çıxarılması ilə əhəmiyyət qazanan Yaxın Şərq keçən əsrin əvvəllərindən bəri dünyanın qeyri-sabit, qanlı bölgələrindən biri olmuşdur. Müharibə, terror, qırğın, qarşıdurma Yaxın Şərq xalqının gündəlik həyatının bir hissəsinə çevrilmişdir.

Müsəlmanların, xristianların və yəhudilərin müqəddəs yerlərinin yerləşdiyi bu torpaqlar 1517-ci ildə Yavuz Sultan Səlimin fəthi ilə Osmanlı torpaqlarına qatılmış, XIX əsrin əvvəllərinə qədər də Osmanlı hakimiyyətində qalmışdır. Eyni illərdə Hicaz torpaqlarının da Osmanlı ərazisinə əlavə edilməsi ilə bölgədə türklər tam hakim olmuşlar.

Türk hakimiyyəti ilə birlikdə bölgəyə sakitlik, bolluq və firavanlıq gəlmişdir. Başda Qanuni Sultan Süleyman olmaqla, bütün türk sultanları Qüds torpaqlarına xüsusi qayğı göstərmiş, imperiyanın ən çətin və sıxıntılı günlərində belə bu bölgəyə etinasız yanaşmamışlar. Qurulan təşkilatlar və təhsil müəssisələrinin köməyi ilə xalqın maddi vəziyyəti qədər mədəni səviyyəsinin də qaldırılması üçün səy göstərmiş, bölgədə köklü türk-İslam mədəniyyəti qurmuşlar. Dövrümüzdə bu bölgədə yaşayan xalq hələ də özünü Osmanlı-türk mədəniyyətinə yaxın hiss edir. Yaxın Şərqdə türk-Osmanlı mədəniyyəti, memarlığı, sənətkarlığı hələ də varlığını qoruyur.

Hər üç dinin mərkəzi olan Qüdsün ən uzun sabitlik dövrü Osmanlının hakimiyyəti illərində olmuş, Qüds xalqı 400 il ədalət, sülh və əmin-amanlıq içində yaşamışdır. Xristianlar, yəhudilər və müsəlmanlar öz inanclarına və məzhəblərinə uyğun, istədikləri kimi ibadətlərini yerinə yetirmiş, öz adət-ənənələrini davam etdirmişlər.

Ancaq bu torpaqların Osmanlının əlindən çıxması ilə əvvəlcə müstəmləkəçi dövlətlərin, daha sonra 1948-ci ildə qurulan İsrail dövlətinin tətbiq etdiyi işğalçı siyasət təqribən 100 ildən bəri bölgədə sakitliyə son qoymuşdur. XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Balkan yarımadasındakı vəziyyətə bənzər hadisə Yaxın Şərqdə baş vermişdir. Osmanlını bu bölgədən uzaqlaşdırmaq və bölgədəki izlərini silmək istəyən qüvvələr araya girmiş və Balkan yarımadasındakı kimi parçalama siyasətinə əl atmışlar. Xüsusilə, İngiltərə və Fransanın müdaxilələri Yaxın Şərqi sonu olmayan qarışıqlığın içinə sürükləmişdir. Yaxın Şərqin ən zəngin neft yataqlarının aşkar edilməsi isə bu ərazini bölüşdürmə yarışını sürətləndirmişdir. İki ölkə arasındakı gizli Sayks-Pikot sazişi Fransa və İngiltərənin bu gizli planlarını sənədləşdirmişdir.

1916-cı ildə İngiltərənin təmsilçisi Ser Mark Sayks ilə Fransanın təmsilçisi M. F. Jorj Pikot arasında imzalanmış saziş Osmanlı torpaqlarını İngiltərə, Fransa və Rusiya arasında bölüşdürərkən eyni zamanda Fələstin üçün də beynəlxaq status müəyyənləşdirirdi. Bu, yaxında qurulacaq İsrail dövləti üçün ilk addım idi.

## Bölgəyə terror toxumlarının səpilməsi...

Sayks-Pikot sazişi imzalandığı dövrdə eyni zamanda bölgədə yəhudi dövlətinin qurulması üçün səy göstərilirdi. B.e. 70-ci ildə bu torpaqlardan sürgün edildikdən sonra dünyanın hər tərəfinə yayılan yəhudilərin Fələstin xəyalı tarixin heç bir dövründə sönməmişdi. 1890-cı ilin əvvəllərində əslində jurnalist olan Teodor Herzlin rəhbərliyi ilə başlayan “sionizm” hərəkatı dünyaya yayılmış yəhudilərin yenidən Fələstinə qayıtmaları və müstəqil dövlət qurmaları üçün fəaliyyətə başladı. Herzl 21-31 avqust 1897-ci ildə Baseldə təşkil etdiyi Birinci Sionist Konqresində əsas hədəf və metodları müəyyən etdi. Bu məqsədlə təşkilatlar toplandı, fondlar quruldu

və çox yaxşı təşkilatlanmış “lobbiçilik” fəaliyyətə başladı (mövzu haqqında ətraflı məlumat üçün bax: “Yeni Masonik Düzen”, Harun Yahya, Araştırma Yayıncılık, 5-ci nəşr, avqust 2003)

Burada bunu bildirmək lazımdır ki, yəhudilərin əcdadlarının yaşadığı Fələstin torpaqlarına qayıtma və burada yerləşmə arzuları qanuni tələbdir. Ancaq bu qanuni tələb yerinə yetirilərkən başqa insanlar zərər çəkməməli, evlərindən, yurdlarından məhrum olmamalı, sülh şəraitində yaşamalıdır. İsrail qurulduqda radikal sionistlərin üsyanları ilə haqqa və ədalətə uyğun olmayan hadisələr baş vermişdir. Ancaq bu hadisələrə görə bütün yəhudi xalqını təqsirləndirmək çox yanlışdır. Müsəlmanlar inanclarına uyğun olaraq tolerant, ədalətli və mərhəmətlidirlər. Fələstin torpaqlarında son əsrdə baş verən hadisələri Quran əxlaqına uyğun dəyərləndirmək lazımdır.

1917-ci ildə İngiltərə Xarici İşlər naziri Ceyms Balfur sionistlərin qabaqcıl nümayəndələrindən Edmond de Rotşildə göndərdiyi məktubda “Əlahəzrət kral hökumətinin Fələstində yəhudi vətəni qurulmasını dəstəklədiyini” bildirir, beləcə, beynəlxalq arenada İsrail dövlətinə yol açırdı. Bu vəd Fələstinin Birinci Dünya Müharibəsinin sonunda Osmanlının hakimiyyəti altından çıxması ilə yerinə yetdi. 1918-ci ildə Osmanlı əsgərləri Fələstindən çəkildi və bölgə ingilislərin hakimiyyətinə keçdi. Bu yeni hakimiyyət ilə bölgə bir əsrdən bəri davam edən qarşıdurmanın içinə düşmüşdür. 1880-1918-ci illər arasında Fələstinin 24 minlik yəhudi əhalisinin sayı 65 minə çatır və beləliklə, qeyri-qanuni yolla yurdlarından çıxarılan ərəblərlə yəhudilər arasında gərginliklər artmağa başlayırdı. Bölgədə müntəzəm artan yəhudilərin sayı İkinci Dünya Müharibəsində əhalinin dörddə birini təşkil edirdi.

Ərəblər, ingilislər və yəhudilər arasında illərlə davam edən qarşıdurmalarla bağlı 1947-ci ildə BMT iclaslara başladı və qurulan xüsusi komissiya Fələstinin yəhudi və ərəblər arasında bölünməsini, Qüdsə isə beynəlxalq statusun verilməsini təklif etdi. Ancaq bu təklif ərəb dövlətləri tərəfindən qəbul edilmədi. Sionistlərin 1948-ci ildə müstəqil dövlətlərini elan etmələri ilə birlikdə 50 ildən çox davam edən müharibələrə zəmin hazırlandı.

Sionizm üzərində inşa edilmiş İsrail əvvəl 1948-ci ildə, daha sonra 1967-ci ildə ərəb torpaqlarını işğal etdi və iki mərhələdə Fələstini tamamilə ələ keçirdi. 3.5 milyon fələstinli qaçqın düşdü. İllərlə davam edən müharibələr nəticəsində minlərlə günahsız insan həyatını itirdi. İsrailin qurulmasından etibarən dövlət idarəçiliyində təsirli olan bəzi radikal sionistlər terror və zorakılığı dövlətin siyasətinə çevirmiş və təkcə işğal edilmiş torpaqlarda deyil, bütün Yaxın Şərq coğrafiyasında terror və anarxiyanın baş aktyoruna çevrilmişdilər.

Bu terror hələ də davam edir. Qadınlara, uşaqlara, yaşlılara aman vermədən qətliamların həyata keçirildiyi Fələstin torpaqlarında 11-12 yaşlı uşaqların gülləyə, raketə, hava hücumlarına qarşı daş və dəyənəklərlə müqavimət göstərməsi artıq adət halını almış mənzərələrə çevrilmişdir. Hələ 15 yaşı olmayan uşaqları israilli əsgərlər avtomatlarının qundağı ilə bərk döyür, məktəblərinə güllə yağışı yağdırır, uşaqların atdığı daşlara güllələrlə cavab verir, beləcə, uşaqların çoxu şikəst olur və ya həyatını itirir. Ancaq televiziya kameralarından dünya ictimaiyyətinə əks olunan bu görüntülərdən daha betər terror anlayışı var. 1948-ci ildə ərəb kəndi olan Deir Yassinə İsrail terror təşkilatı Stem tərəfindən təşkil edilmiş hücumun izləri hələ də yaddaşlardan silinməmişdir. Hamilə qadınlar və uşaqlar da daxil olmaqla, 280 nəfər kəndlinin küçələrdə gəzdirildikdən sonra güllələndiyi Deir Yassində gənc qızlara təcavüz edilmiş, kişilərin cinsiyyət orqanları kəsilmişdir. Bu terror hadisəsinə dair hesabatda ortadan iki yerə parçalanmış qız uşağından belə bəhs edilir.[42] 6 ay ərzində ərəb kəndlərinə edilmiş bu cür çoxlu hücumlar nəticəsində 400 minə yaxın ərəb yurd-yuvasını tərk etməyə məcbur olmuşdur.

Radikal sionistlər bölgədə ideologiyalarına uyğun olaraq həyata keçirdikləri terror və təzyiq siyasətini gizli və açıq şəkildə davam etdirirlər. Digər tərəfdən, bölgədəki digər dövlətlərin də daxili problemləri, bir-birlərinə dəstək olmamaları, zəif iqtisadiyyata malik olmaları bu siyasətə qarşı təsirli güc təşkil etmələrini qeyri-mümkün edir. Yaxın Şərq dövlətləri yeganə ideal və prinsip uğrunda onları birləşdirəcək və idarə edəcək bir gücü gözləyirlər. Bu güc isə tarixi mirasa malik Türkiyənin əlindədir. Çünki Türkiyənin bütün bölgə dövlətləri üzərində xüsusi təsiri var. Ancaq Birinci Dünya Müharibəsi zamanı bu bölgədə tətbiq edilən siyasətin izləri hələ də durur.

# XİLASKARINI GÖZLƏYƏN QAFQAZ VƏ MƏRKƏZİ ASİYA

Türkiyə üçün Yaxın Şərq və Balkan yarımadasındakı tarixi üstünlük Qafqaz və Mərkəzi Asiyaya da aiddir. Türkiyə bu bölgədə böyük potensial nüfuza malikdir. Qafqaz tarix boyu rus zülmündən qaçaraq Osmanlıya sığınmış müsəlman xalqların diyarıdır. Mərkəzi Asiya isə Osmanlı torpağı olmasa da, türk olduğuna görə Türkiyəyə bağlıdır. Buna görə türk millətinin aydın gələcəyi müəyyən edilərkən başda türk-rus münasibətləri olmaqla, bu coğrafiyanın tarixi arxa planının təhlil edilməsi faydalı olacaq.

SSRİ-nin süqutundan sonrakı Qafqaz xəritəsində Türkiyə ilə yaxından əlaqədar olan bölgə meydana gəlmişdir. Çünki müstəqilliklərini bir-bir elan edən müsəlman-türk dövlətləri ilə Türkiyə arasında din, dil, mədəni və tarixi cəhətdən çox güclü əlaqələr var. Habelə, siyasi və iqtisadi gücü, demokratik, müasir kimliyi ilə Türkiyə Mərkəzi Asiya dövlətləri üçün nümunədir, hətta bu dövlətlər tərəfindən “böyük qardaş” qəbul edilir. Ancaq bu əlaqələri daha da möhkəmləndirərək bölgədə güclü Türk Birliyi qurmaq gündəmə gəldikdə Türkiyənin qarşısına mühüm maneələr çıxır. Bu maneələrdən biri də bölgədə itirdiyi siyasi və iqtisadi hegemonluğunu yenidən qazanmaq istəyən Rusiyadır.

Mərkəzi Asiya və Qafqazı Rusiya üçün mühüm hədəf edən faktorlardan ən əsası neft-qaz və təbii resurslardır. Respublikalar müstəqilliklərini qazandıqdan sonra Rusiya xammal qıtlığı təhlükəsi ilə qarşılaşmışdır. Bununla bərabər, bu torpaqlar coğrafi cəhətdən də Rusiya üçün strateji əhəmiyyət daşıyır. Xüsusilə, Qafqaz Mərkəzi Asiyanın qapısı və Rusiyanın rəqib hesab etdiyi İran və Türkiyənin kəsişmə nöqtəsi olduğuna görə, Rusiya üçün çox dəyərlidir. Bütün bu səbəblər Rusiyanın bu bölgəni nüfuz dairəsinə salmaq üçün göstərdiyi səyləri açıqlamaq üçün kifayətdir. Əslində bölgədəki hədəflərindən tarixən də əl çəkməyən Rusiya Türkiyəyə qarşı Osmanlı dövründən etibarən davam edən münasibətini heç vaxt dəyişməmişdir.

Rusiyanın Türkiyəyə və türk millətinə nöqteyi-nəzərinin tam anlamaq üçün əvvəlcə Rusiyanın xarici siyasət anlayışını yaxşı izah etmək lazımdır. Rusiya qurulduğu dövrdən etibarən daima sərhədlərini genişləndirmək və dənizə çıxışını təmin etmək ehtiyacı hiss etmişdir. Bu anlayış Rusiyanın XVIII əsrin əvvəllərində sərhədlərini Baltik dənizinə qədər genişləndirməsinə səbəb olmuşdur. 1721-ci ildə isə imperatorluğunu elan edən Rusiya qitə dövlətinə çevrilmişdir. Bir qitə dövləti kimi Rusiya xarici siyasətini qitəyə ən yaxın bölgələri nəzarəti altında saxlayan strategiya üzərində qurmuşdur. Buna əsasən Rusiya təhlükəsizliyini təmin etmək üçün dörd əsas bölgəyə nüfuz etməyi hədəfləmişdir. Bu bölgələr Balkan yarımadası, Baltikyanı ölkələr, Qafqaz və Mərkəzi Asiyadır.[43] Ona görə tarixən ruslarla bu bölgələrdə yaşayan xalqlar arasında qarşıdurma olmuşdur.

## Osmanlıya bağlı rus təbəəsi

Rusiyanın tarix boyu izlədiyi ekspansionist (sərhədləri genişləndirmə) siyasət Qafqazda yaşayan müsəlman xalqına çox təsir etmişdir. Xüsusilə XIX əsrdən etibarən Qafqaz Rus ekspansionizminə məruz qalmışdır.

Rusların qəsdən və məcburi tətbiq etdikləri deportasiya və sürgün siyasətinin kökündə bu torpaqlarda potensial müsəlman birliyinə maneçilik məqsədi dururdu. Çar rejiminin hakimiyyəti altında yaşayan müsəlmanlar isə hər zaman özünün Anadolu müsəlmanlarına, yəni Osmanlıya daha yaxın hiss etmişdir.

Həm türklərin ədalət və tolerantlıq anlayışı ilə yaxından tanış olmaları, həm də din birliyi rus təbəəsi olan xalqların tez-tez Osmanlının mərhəmətinə, ədalətinə və nizamına sığınmasına səbəb olmuşdur. Osmanlı tarix

boyu həmişə Qafqaz türklərini müdafiə etmiş, türk xalqları ilə arasında olan tarixi və mədəni əlaqəsini heç vaxt kəsməmişdir. Belə ki, Osmanlı arxivləri də bu vəziyyəti nümayiş etdirir. Osmanlı təbəəsi olduğu halda, aralarındakı sazişə zidd olaraq Rusiyanın hakimiyyəti altına keçən Gürcüstan xalqının hər iki hökumət haqqındakı fikirlərini ifadə edən sənədlərə Prof. İsmet Miroğlu elmi fəaliyyətlərində yer vermişdir. Bu sənədlərin hər biri türk ədalət və tolerantlığını əks etdirməklə bərabər bu torpaqlarda yaşayan milyonlarla insanın Türkiyə ilə tarixi əlaqəsinin dəlilidir. Baş Nazirliyin Arxivindəki bu sənədlərdən birində Gürcüstan xalqı Osmanlı ilə əlaqələrini belə ifadə edir:

> *... Rusların təzyiqindən bizi xilas etməyinizi xahiş edirik. Bu hərəkətinizlə bütün Gürcüstan xalqının xeyir dualarını alacaqsınız. Gürcüstan xalqının Osmanlı hökumətindən uzaqlaşaraq Rusiyanın əlinə keçməməsini xüsusi rica edirik. Biz bu zalımların təqib və təzyiqlərinə məruz qalıb vətənimizi tərk etmişik.*[44]

Qafqaz xalqları daima Osmanlıya meyilli olublar. Həmişə öz torpaqlarını Dövləti Ali-Osmanlının bir hissəsi hesab etmiş, həm türk, həm də müsəlman kimi Osmanlı sultanlarına bağlılıqlarını dilə gətirmişlər. Osmanlı sultanlarına yazdıqları məktublarda onları öz torpaqlarına dəvət etmiş, rəsmi surətdə Osmanlı torpaqlarının bir hissəsi olmağı özləri təklif etmişlər. Bir gürcü məliki tərəfindən Osmanlı padşahına göndərilən məktub bu tarixi həqiqəti göstərir:

> *... O vaxtdan bəri Dövləti-Aliyyənin bir köləsi və təbəəsiyəm və Gürcüstan Osmanlı torpaqlarının bir hissəsidir. Bütün Gürcüstan xalqının Osmanlı dövləti sayəsində rahat yaşadığı aşkardır.*[45]

Gürcü xalqı və rəhbərləri tərəfindən göndərilən başqa məktub isə belədir:

> *On ildir ki, Rusiya hiylə yolu ilə ölkəmizə girib. Rəhbərlərimizi aldadıb... Çox güclü təzyiqlər olub. Uşaqlarımıza hücum edib yaşlı və yeddi yaşlı uşaqlardan başqa hər kəsi Rusiyaya aparıblar, halbuki Gürcüstün altı yüz ildən bəri Osmanlı dövləti sayəsində nizam-intizamlı ölkə idi. Biz artıq qəti qərar vermişik. Ya rusları ölkəmizdən çıxaracaq, ya da bu ölkəni başdan-ayağa məhv edəcəyik. Biz Dövləti-Aliyyənin təbəəsiyik. Osmanlı dövlətinə sığınırıq.*[46]

Bu gün də Qafqazda yaşayan və əksəriyyəti müsəlman olan xalqlar birbaşa və ya dolayı yollarla Rusiyanın təzyiqinə məruz qalır, hətta bir çoxu müharibə şəraitində müstəqilliklərini, adət-ənənələrini qorumaq, dinlərini azad yaşamaq üçün canlarını verirlər. Bu gün də bu məsum xalqlar açıq-aşkar zülmə məruz qalır, kömək gözləyirlər.

Bu coğrafiyada geostrateji və geosiyasi cəhətdən bu xalqlara yardım əli uzadacaq yeganə ölkə, şübhəsiz ki, Türkiyədir. Bu ölkələrlə din və dil birliyinə malik olan Türkiyə keçmişdə olduğu kimi, bu günkü müasir və demokratik idarəçilik sistemi ilə bu bölgədə liderliyə layiq yeganə ölkədir. Habelə, bu, sözügedən ölkələr üçün olduğu qədər, Türkiyə üçün də ciddi strateji üstünlükdür. Çünki Türkiyənin buradakı siyasi nüfuz dairəsi Qafqazla məhdudlaşmır. Sayı 250 milyondan artıq olan böyük Türk Dünyası onları tək birlik altında toplayacaq gücü gözləyir.

Mərkəzi Asiyada 1990-cı ildə meydana gələn mənzərə Türkiyə üçün çox mühüm və yeni strateji qapı açdığı kimi, XXI əsr üçün də çox mühüm məsuliyyət tələb edir. 1991-ci il uzun müddət kommunist rus hökumətinin zorakı siyasəti altında əzilmiş, zülm görmüş türk dövlətlərinin müstəqilliklərini qazandığı dönüş nöqtəsi olmuşdur. 70 il davam edən təzyiqin ardınca kommunizmin süqutu ilə Mərkəzi Asiyada başlayan müstəqillik hərəkatları Türk Dünyasını birlik və bərabərliyə, güclü dünya hakimiyyətinə istiqamətləndirir. Eyni zamanda, tarix boyu dünya dövlətləri qurmuş, üç qitəni tənzimləmiş türk milləti Türk birliyi qurmaq üçün çox təcrübəlidir.

Orxon kitabələrindən Kültigin kitabəsindəki bu cümlələr türkün dünya hakimiyyətini və bu sahədə təcrübəsini sübut edir:

> **Şərqdə gündoğana, cənubda gündoğana qədər ərazidəki millət mənə tabedir. Bu qədər millətə nizam-intizam gətirmişəm... Kasıb milləti zəngin etmişəm. Az milləti çoxaltmışam.**

250 milyonluq Türk dünyası XXI sərdə sağlam addımlarla irəliləyir. Türkiyə və türk dövlətləri arasında qurulacaq iş birliyinin təməli, şübhəsiz ki, 70 il boyu Rusiyanın unutdurmağa çalışdığı müsəlmanlıq və türklük şüurunun inkişafıdır. Türk-İslam əxlaqının əsas prinsipləri olan ədalət, tolerantlıq, mərhəmət kimi xislətlərin möhkəmləndirilməsi ilə yer üzündə hal-hazırda çatışmayan sülh və əmin-amanlıq mühiti türk millətinin zəmanəti ilə bərqərar ediləcəkdir.

Türk ölkələri uzun illər başqa ölkələrin hakimiyyəti altında yaşasalar da, bu müddət ərzində sosial və mədəni quruluşlarında köklü dəyişiklik olmamışdır. Milli adət-ənənələrini qoruyan bu dövlətlər tarixən müsəlman Osmanlı dövlətinin təbii liderliyini qəbul etdikləri kimi, bu gün də Türkiyənin liderliyi ilə qurulacaq güclü "Türk Birliyi"nin həsrətini çəkirlər. Bu gün özbəklər, azərbaycanlılar, türkmənlər, qırğızlar kimi bütün müsəlman türk xalqları Türkiyənin bu birliyi qurmaq üçün atacağı addımları gözləyir. Qazaxıstanın prezidenti Nursultan Nazarbayevin 28 sentyabr 1991-ci ildə İstanbulda söylədiyi nitq türk respublikalarının bu gözləntisini və gələcəyə dair ümidlərini əks etdirmək baxımından çox əhəmiyyətlidir:

> *Ancaq bahar sellərinin qarşısını almağa, önünə bənd çəkməyə nə qədər çalışsanız da, su yenə öz yolunu açacaq. Tarix çayı da eyni istiqamətdə axmış və "soyuq müharibə" maneəsini yıxan tarix bəşəriyyət qanunları ilə müəyyən edilmiş əsas yatağına qayıtmışdır... Xalqlarımız arasında qarşılıqlı anlayış və etibar duyğusu əmələ gəlmişdir. Dostluq təsirli iş birliyinin ən təhlükəsiz zəmanətidir. Bu vəziyyət bizə ümid verir.*[47]

# HƏLL YOLU VƏ NƏTİCƏ

Buraya qədər qısaca Türkiyənin strateji mirasını nəzərdən keçirdik. Bu miras XXI əsrdə türk millətini XXI əsrdə türk millətini lider ölkələr arasında birinci edəcək çox köklü və şanlı mirasdır. Tarixi və müasir həqiqətlər bizə türkün dünya liderliyinin utopiya olmadığını, əgər cəhd edilərsə, baş verməsi mümkün prinsip olduğunu göstərir.

Əgər Türkiyə böyük mədəni mirasını yaxşı dəyərləndirib gələcəyə ümidlə baxıb keçmişinə də hər cəhətdən sahib çıxarsa qarşısında çox işıqlı gələcək olar. Türkiyə tarixin ən köklü sivilizasiyalarından birinin varisidir. Bu böyük miras doğru dəyərləndirildikdə və maddi-mənəvi əhəmiyyəti dərk edildikdə beynəlxalq arenda ölkəmiz XXI əsrin lider dövlətlərindən biri olacaq.

Siyasi tarix göstərir ki, dünyaya hakim olmaq istəyən güc, hər şeydən əvvəl, bu gün “Osmanlı hinterlandı” kimi tanınan bölgələrə hakim olmalıdır. Çünki dünya siyasəti əsasən bu coğrafiya ətrafında formalaşır. Ancaq bu coğrafiyada Osmanlı dövlətindən sonra keçən bu qədər vaxt və sınaqdan keçirilən hər cür rejimə baxmayraq rahatlıq və sabitlik əldə edilməmişdir. İstər Balkan yarımadası, istərsə də Yaxın Şərq və Qafqaz qaynar nöqtələrdir. Elə bir gün yoxdur ki, bu torpaqlarda zülm olmasın, göz yaşı axıdılmasın. Bölgə xalqları müharibə və qarşıdurmaların ağır yükü altında əzilir. Yaxın Şərqi müharibə mərkəzinə çevirən xarici qüvvələr dünyada sülhü bərqərar etməkdə aciz olduğunu son 70 ildə dünya xalqlarınının başına gələn hadisələr göstərmişdir.

Dünya idarəçiliyini öhdələrinə götürən və super dövlətlər kimi tanınan bu qüvvələr əllərindəki bütün imkanlara baxmayraq Osmanlının əsrlər boyu bacardığını əldə edə bilməyiblər. Tarixi hadisələr bu cür aktiv bölgənin hər an yenidən strukturunu dəyişməyə meyilli olduğunu göstərir. Osmanlı coğrafiyası da mütləq bir gün hərəkətə keçəcək və onun üçün müəyyən edilmiş orbitdən çıxaraq təbii nizamına qayıdacaq. Etnik və dini müxtəlifliyə malik və çətin idarə edilən bölgələrə nizam verən müsəlman türk milləti bu gün də bu tarixi vəzifəni üzərinə götürməyə hazırdır.

Habelə, Balkan yarımadası, Yaxın Şərq, Qafqaz və Mərkəzi Asiyanı əhatə edən Avropa Birliyi kimi bir birlik bölgədəki bütün dövlətlər üçün çox mühüm islahat və qazanc olacaq. Bu coğrafiyanın strateji əhəmiyyəti bölgədə yerləşən dövlətlərin güclərini və imkanlarını həm iqtisadi, həm də sosial-mədəni cəhətdən birləşdirməsi ilə daha da artacaq. Avropa Birliyinə bənzər birliyin bu bölgədə formalaşması dünya siyasətinin təkmərkəzli çərçivədən çıxarılmasına da vasitəçi olacaq. Bu cür birlik bölgədəki hər ölkə üçün mühüm istinadgah təşkil edəcək və beləliklə beynəlxalq arenada hər bir dövlət öz xalqının mənfəətlərini sona qədər qoruya biləcək. Bu yolla böyük güclər tərəfindən bölgədə oynanılan oyunlara, haqsızlıq və ədalətsizliklərə son veriləcək, bütün xalqların öz gələcəklərini özlərini müəyyən etdiyi sistem hakim olacaq. Bölgədə yaşayan bütün xalqların haqlarının qorunacağı belə bir sistem, şübhəsiz ki, hər kəs üçün böyük qazanc olacaq.

Bundan əlavə, məlum olduğu kimi, bu torpaqlar bu gün dünyanın ən zəngin yeraltı sərvətlərinə malikdir. Başda Qafqaz və Mərkəzi Asiya olmaqla Osmanlı hinterlandı sənayeləşmələrin əsas xammaddəsini təşkil edən kömür, neft, qaz, dəmir, mis kimi yataqları ilə zəngindir. Müsəlman türklərin liderliyi ilə bu zəngin təbii resurslar ən xeyirli şəkildə istifadə ediləcək. Bununla yanaşı, belə bir ortaqlıq eyni bölgədə yerləşən ölkələri müdafiə xəttində toplayacaq və bu da madafiə xərcələrinin azalmasına kömək edəcək. Bu şəkildə əldə ediləcək əlavə gəlir bölgə xalqlarının dirçəlişinə sərf ediləcək.

Müdafiə, iqtisadiyyat və sosial-mədəni sahədəki əməkdaşlıq bölgənin rifahını və həyat tərzini yaxşılaşdıracaq. Bu cür birliyin təbii lideri isə Türkiyədir.

Türkiyə geo-strateji və geo-iqtisadi cəhətdən bu bölgədə kilid nöqtədə yerləşir. Habelə bütün bu xalqlar Türkiyə ilə mənəvi əlaqələrini hələ də davam etdirirlər. Türkiyəyə mənəvi cəhətdən dərindən bağlanmış bu insanlar onlara uzanan yardım əlini gözləyir və müsəlman türk millətini xilaskar kimi görürlər. Türkiyə albanları, bosnyakları, çeçenləri, çərkəzləri, azərbaycanlıları, gürcüləri və hətta xorvatları, serbləri, romanları və bolqarları belə yeni “Osmanlı Millətlər Birliyi” adı altında birləşdirə bilər. Belə ki, bütün bu xalqların əksəriyyəti hal-hazırda Osmanlı dövründəki sülh və əmin-amanlığı yenidən istəyir və bunun üçün Türkiyəyə ümid gözü ilə baxırlar.

Türkiyə öz strategiyası ilə həm bütün Yaxın Şərq, Balkan yarımadası, Qafqaz və Mərkəzi Asiyada daimi sülhü bərqərar edəcək, həm də bu birlikdən doğan iqtisadi gücü ən ədalətli və doğru şəkildə idarə edəcək tarixi mirasa malikdir. Heç bir güc tarixi istiqamətləndirmiş, bəşəriyyətə sülhü, ədaləti və əmin-amanlığı bəxş etmiş böyük mədəni irsə və təcrübəyə malik, köklü və zəngin sivilizasiyanın qurucusu olan millətin təsirini aradan qaldıra bilməz.

Keçmişdə olduğu kimi, bu gün də müsəlman türk milləti səbri, imanı və gözəl əxlaqı ilə məzlumun yanında, zalımın qarşısında olacaq, müxtəlif milliyyətə və mənşəyə mənsub insanları ədalət və tolerantlıqla birləşdirəcək və bütün dünyanın həsrətini çəkdiyi sülh və əmin-amanlığı bərpa edəcək.

XXI əsr, Allahın izni ilə, bütün müsəlman və türk xalqları üçün aydın dövr olacaq.

# ƏLAVƏ BÖLMƏ TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdənkənar cəfəngiyyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsilə çürümüşdür. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı həqiqəti elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində həyata keçirilən təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalanlara və edilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixindəki ən böyük xəta olması, son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 80-ci illərdən sonra aparılan tədqiqatlar Darvinist iddiaların tamamilə səhv olduğunu ortaya qoymuş və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı Darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq “yaradılış həqiqətilə” açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox fəaliyyətimizdə bütün elmi detalları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq mövzudan daşıdığı əhəmiyyət baxımından burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim Yunanıstana gedib çıxan bir təlim olmasına baxmayaraq XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəliyinə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlrəini Allahın ayrı-ayrı yaratması həqiqətinə qarşı çıxırdı. Darvinə görə bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi sadəcə bir “məntiq yeritmə” idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi nəzəriyyə bir çox mühüm sual qarşısında çarəsiz qalırdı.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə irəliləyən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq irəliləyən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında nəzərdən keçirmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü “təkamül mexanizmlərinin” əslində təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini ortaya qoyur.

Bu bölmədə bu üç əsas başlığı əsaslı şəkildə nəzərdən keçirəcəyik.

# Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlrəinin bundan təxminən 3.8 milyard il əvvəl bəsit yerdə ortaya çıxan bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyerənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Bəhs edilən o “ilk hüceyrə” necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı inkar etdiyi, heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün o “ilk hüceyrənin” heç bir dizayn, plan və nizamlama olmadan, təbiət qanunları içində təsadüfən meydana gəldiyini iddia edir. Yəni o nəzəriyyəyə görə cansız maddə təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

# “Həyat həyatdan törəyər”

Darvin kitabında  həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki bəsit em anlayışı canlıların çox bəsit quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri inanılan “spontane generasiya” adlı nəzəriyyəyə əsasən cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanılırdı. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayışmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr edilmişdi. Çirkli əskinin üstünə bir az buğda qoyulmuş və bir az gözlədikdə bu qarışıqdan siçanların əmələ gəlməsini düşünmüşdülər.

Ətin qurdlaması da həyatın cansız maddələrdən törədiyinə bir dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduqları gözlə görülməyən yumurtalardan çıxırdılar.

Darvinin *“Növlərin mənşəyi”* adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloqu Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə məhv etdi. Paster apardığı uzun fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

*Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür.*[48]

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

# XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusu ilə məşğul olan ilk təkamülçü məşhur rus bioloqu Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini

sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etmək məcburiyyətində qalacaqdı:

*Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən qara nöqtədən ibarətdir.*[49]

Oparinin yolunu davam edən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller bəsit atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintez etdi.

*O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olması və təcrübədə tətbiq edilən atmosferin həqiqi Yer şərtlərindən çox fərqli olması sonrakı illərdə üzə çıxacaqdı.*[51]

Uzun müddət sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi.

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səyləri uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Yer” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

*Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcında qarşımızda duran ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: Həyat yer üzündə necə başlayıb.*[52]

# Həyatın kompleks quruluşu

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi ilə bağlı bu qədər böyük çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən bəsit hesab edilən canlı formalarının belə inanılmaz dərəcədə mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək canlı hüceyrə əmələ gətirilə bilmir.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı 500 amin turşusundan ibarət bir zülal üçün $10^{950}$-dir. Ancaq riyaziyyatda $10^{50}$-də 1-dən kiçik ehtimallar praktiki cəhətdən “mümkünsüz” hesab edilir. Hüceyrənin nüvəsində yerləşən və genetik məlumat daşıyan DNT molekulu isə məlumat bankıdır. İnsan DNT-sindəki məlumat əgər kağıza köçürülsə, 500 səhifədən ibarət 900 cildlik kitabxana əmələ gələr.

Burada çox maraqlı müəmma da var: DNT ancaq bir sıra xüsusi zülalların (hormonların) köməyilə cütlənə bilər. Amma bu hormonların sintezi də ancaq DNT-dəki məlumatlar əsasında baş verir. Bir-birlərindən asılı olduqlarına görə cütləmənin meydana gəlməsi üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü Prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr tarixli sayında bu həqiqəti belə etiraf edir:

*Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Amma bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə insan həyatın kimyəvi yollarla ortaya çıxmasının tamamilə mümkünsüz olması nəticəsinə gəlmək məcburiyyətində qalır.*[53]

Şübhəsiz, əgər həyatın təbii amillərlə ortaya çıxması mümkün deyilsə, belə olduqda həyatın fövqəltəbii şəkildə "yaradıldığı" qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq şəkildə əsassız edir.

# Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci böyük cəhət nəzəriyyənin "təkamül mexanizmləri" kimi irəli sürdüyü iki anlayışın da əslində heç bir təkamül gücünə malik olmamasının başa düşülməsidir. Darvin ortaya atdığı təkamül iddiasını tamamilə "təbii seleksiya" mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülürdü: *"Növlərin mənşəyi, təbii seleksiya yolu ilə"...*

Təbii seleksiya təbii seçmə deməkdir. Təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma, əlbəttə, bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və *"Növlərin mənşəyi"* adlı kitabında "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz" demək məcburiyyətində qalmışdı.[54]

# Lamarkın təsiri

Bəs bu "faydalı dəyişikliklər" necə baş verə bilərdi? Darvin öz dövrünün bəsit elm anlayışı içində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə saxlanılan bu xüsusiyyətlər nəticəsində yeni növlər ortaya çıxır. Məsələn, Lamarka görə zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yemək üçün cəhd edərkən nəsildən-nəslə boyunları uzanmışdır.

*"Növlərin mənşəyi"* adlı kitabında qida tapmaq üçün suya girən bəzi ayıların zaman ərzində balinalara çevrildiyini iddia etmişdi.[55]

Amma Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən irsiyyət qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "tək başına" və tamamilə təsirsiz mexanizm olaraq qalırdı.

# Neo-darvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında "Müasir sintetik nəzəriyyə" ni və ya daha geniş yayılmış adı ilə neo-darvinizmi ortaya atdılar. Neo-darvinizm təbii seçmənin yanına "faydalı dəyişiklik səbəbi" kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici təsirlər və ya klonlaşdırma xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi.

Bu gün də dünyada təkamül adına əsaslılığını qoruyan model neo-darvinizmdir. Nəzəriyyə yer üzündə mövcud olan milyonlarla canlı növünün bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının "mutasiyalara", yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir.Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> *Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli inkişaf meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olar. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər.*[56]

Belə ki, bu günə qədər heç bir yararlı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya nümunəsi müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması məlum olub. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" kimi göstərdiyi mutasiyalar əslində canlıları sadəcə təhrif edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhfedici mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, "tək başına heç bir şey edə bilməz". Bu həqiqət bizə təbiətdə heç bir "təkamül mexanizmi" olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə təkamül deyilən xəyali proses də mümkün deyil.

# Fosillər: ara-keçid formalardan əsər yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə ortaya çıxmışlar. Nəzəriyyəyə əsasən bu çevrilmə yüz milyonlarla il davam edən uzun zamanı əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu halda iddia edilən uzun çevrilmə prosesi içərisində saysız-hesabsız "ara növlər" əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarıbalıq-yarısürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən-quşlar ortaya çıxmalıdır.

Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları **"ara-keçid forması"** adlandırırlar.

Əgər həqiqətən bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayları və növləri milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin *"Növlərin mənşəyi"*ndə bunu belə açıqlamışdır:

> *Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birinə bağlayan saysız-hesabsız ara-keçid növləri mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər.*[57]

# Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq bu ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, əksiksiz və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloqu Derek V. Eycer təkamülçü olmasına baxmayaraq bu həqiqəti belə etiraf edir:

> *Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə, daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük.*[58]

Yəni fosil izlərində bütün canlı növləri, aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin rəylərinin tam əksidir. Habelə, bu canlı növlrəinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün təkamül keçirərək əmələ gəldiyi heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> *Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar.*[59]

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

# İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəliyə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bir cür məxluqlardan törədiyini fərz edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi “ara-keçid formaların” yaşadığı iddia edilir. Əslində tamamilə fantastik olan bu ssenaridə dörd əsas “kateqoriya” var:

1- *Australopithecus*

2- *Homo habilis*

3- *Homo erectus*

4- *Homo sapiens*

Təkamülçülər insanların “ilk meymunabənzər əcdadlarına” “cənub meymunu” mənasını verən *“Australopithecus”* adını vermişlər. Bu canlılar əslində nəsli kəsilmiş meymun növüdür. Lord Soli Zakerman və Prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan dünyada məşhur olan iki anatomistin *Australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir.[60]

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələlsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən homo seriyasındakı canlılar Australopithecuslardan daha çox inkişaf etmişlər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ard-arda düzərək xəyali təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki əslində bu fərlqi siniflərin arasında təkamül xarakterli əlaqə olması hələ sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr “*Homo sapiens*ə uzanan zəncir halqası əslində itib” deyərək bunu qəbul edir.[61]

Təkamülçülrə *“Ausrtalopithecus>Homo habilis>Homo erectus>Homo Sapiens”* sırasını yazarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *Australopithecus, Homo habilis* və *Homo erectusun* dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir.[62]

Habelə, *Homo erectus* təsnifatına aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşamışlar, *Homo Sapiens neandertalensis* və *Homo sapiens sapiens* (müasir insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar.[63]

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stefen Cey Qauld, özü də təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin içinə düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> *Əgər bir-birilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digərilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər.* [64]

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür xəyali “yarımeymun-yarıinsan” canlıların rəsmlərilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyəə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *Australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Soli Zakerman təkamülçü olmasına baxmayaraq, ortada meymunabənzər canlılardan insana uzanan həqiqi soy ağacı olmaması nəticəsinə gəlmişdir.

Zakerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdənkənar qəbul etdiyi elm sahələrinə qədər şaxələnmə qurmuşdur. Zakermanın bu cədvəlinə əsasən ən “elmi”- yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənnlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni “elmdənkənar” hesab edilən hissədə isə Zakermana görə telepatiya, altıncı hiss kimi “hissin fövqündə olan qavrama” anlayışları və “insanın təkamülü” yerləşir! Zakerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> *Obyektiv həqiqət sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür.*[65]

İnsanın təkamülü nağılı da məhz nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

# Darvin formulu!

İndiyə qədər nəzərdən keçirdiyimiz bütün texniki dəlillərlə bərabər, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyni iddia edir. Ona görə bu iddiaya əsasən cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi fikirləşək; canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirilə bilməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin əslində müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çox sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də (bircə dənəsinin belə təsadüfən əmələ gəlmə ehtimalı 19950 olan) zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri təkmilləşdirilmiş cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəsilə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il davamlı olaraq çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etməkdə sərbəst olsunlar. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, sarı bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləbçiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuzquşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ard-arda başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi bu həqiqəti üzə çıxarar.

# Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüaları buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək:

Beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görüntü mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı seyr edirsiniz.

Üstəlik bu qədər aydın və keyfiyyətli görüntüdür ki, XIX əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq bu aydınlığı təmin edə bilmir. Məsələn, hal-hazırda oxuduğunu kitaba, kitabı tutan əllrəinizə baxın, sonra başınızı qaldırın və ətrafınızı seyr edin. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüz? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydınlığı əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, araşdırmalar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor hazırlamağa, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək ümümkün deyil, həm də bu, süni üç ölçüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi baş verir.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizor təsadüflər nəticəsində əmələ gəldi, atomlar birləşdi və bu görüntünü əmələ gətirən aləti meydana gətirdi desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəmələri elektrik siqnallarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə xarici aləm nə qədər hay-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestrin simfoniyalarını dinləyir, tünlük mühitin bütün hay-küyünü eşidirsiniz. Amma o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada işləyən minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir.

Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu vəziyyət insan yaradıldığı gündən bəri belədir.

İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə çox böyük həqiqət də var.

# Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı seyr edən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn oyanmalar elektrik siqnalı kimi beyinə ötürülü. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmlə gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik siqnallarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü seyr etmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda düşünmək üçün beyinə də ehtiycı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə kub santimetrlik, qapqaranlıq məkana bütün kainatı üç ölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

# Materialist inanc

Bura qədər nəzərdən keçirdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərlə üzə çıxan ziddiyyətli iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu halda, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya Yer mərkəzli kainat modeli kimi bir çox düşüncə elmin gündliyindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini “elmə təcavüz” kimi göstərməyə çalışırlar. Axı niyə?.. Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün ayrılmaz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və Darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda qabaqcıl təkamülçülərdən olan Riçard Levontin “əvvəlcə materialist, sonra elm adamı” olduğunu belə etiraf edir:

> *Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə,* ***materializmə olan “a priori” bağlılığımız səbəbindən dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanaın səhnəyə çıxmasına icazı verə bilmərik.***[66]

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu həm ağla, həm elmə zidd qəbuldur. Amma darvinistlər öz ifadələrilə "İlahi açıqlamanın səhnəyə çıxmaması" üçün bu qəbulu müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradıb forma verən Allahdır.

# Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq cəmiyyətlərin xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın mümkünsüz olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi sənətkarların, bununla yanaşı ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən təkamül nəzəriyyəsi haqqında "dünya tarixinin ən böyük və ən təsirli sehri" ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin tomtemlərə, Səba xalqının Günəşə tapınmasından, Hz. İbrahimin qövmünün öz əllərilə düzəltdikləri bütlərə, Hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının qapanacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah Hicr surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın mümkünsüz ssenarilərə, cəfəng və məntiqdənkənar iddialara inanmaları başa düşülə bilər. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi təşkilatlanma, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, canlılara uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının “sehr”dən başqa heç bir açıqlaması yoxdur.

Belə ki, Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini Hz. Musa ilə Firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa Firona haqq dini təbliğ etdikdə Firon Hz. Musaya öz “bilici sehrkarları” ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda sehrkarlara əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> **(Musa) “Siz atın” - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, Fironun sehrkarları etdikləri “göz bağlayıcılıqla” Hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı Hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə “uydurduqlarını udmuş”, yəni təsirsiz etmişdir:

> **Biz də Musaya: “Əsanı tulla!” - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsirindən elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, hqəiqətlər tam mənası ilə üzə çıxdıqda və “sehr pozulduqda” alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

> Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar.[67]

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüflərin” ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə fikirləşir.

**Onlar: “Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən”, - dedilər. (Bəqərə surəsi, 32)**

# QEYDLƏR


1 Yılmaz Öztuna, Osmanlı Devlet Tarihi I, Ankara, T.C. Kültür Bakanlığı Yayınları, Yayın 2068, 1998

2 Prof. Dr. Ramazan Özey, Yiğit Düştüğü Yerden Kalkar, Tarih ve Düşünce, avqust 2000, səh. 28

3 Hakan Arslan, Yeni Şafak, 15 may 1999

4 Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları, İstanbul Turan Neşriyat ve Matbaacılık, 1969, 1-ci cild, səh. 182

5 Ramazan Özey, Yiğit Düştüğü Yerden Kalkar, Tarih ve Düşünce, avqust 2000, səh.30

6 http://www.tevhidweb.f2s.com/ogut/edabali.htm

7 Cela-zade Mustafa, Selim-name, Ankara Kültür Bakanlığı, 1990

8 Prof. Dr. İsmet Miroğlu, Osmanlı Yönetiminde İnsan ve Hukuka Saygı, Tarih ve Medeniyet, yanvar 1999, səh.16

9 Prof. Dr. İsmet Miroğlu, Osmanlı Yönetiminde İnsana ve Hukuka Saygı, Tarih ve Medeniyet, yanvar 1999, səh.19

10 Osman Turan, Türk Cihan Hakimiyeti Mefkuresi Tarihi, İstanbul 1969, səh. 193

11 A. Gibbons, Osmanlı İmparatorluğu'nun Kuruluşu, Çev. Ragıp Hulusi, İst. 1928, səh.63

12 Prof. Dr. Ramazan Özey, Yiğit Düştüğü Yerden Kalkar, Tarih ve Düşünce, avqust 2000, səh. 30

13 Osman Turan, Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları, Turan Neşriyat ve Matbaacılık, İstanbul 1969, 2-ci cild, səh. 122

14 Derleyen Mutlu Altay, Türkler İçin Ne Diyorlar?, Türk Kültürünü Araştırma Enstitüsü, Diyanet Vakfı, İstanbul Araştırma Merkezi Kütüphanesi, səh.11

15 Aşıkpaşazade, Teravih-i Al-i Osman, İstanbul 1332, səh.30

16 The Grand Turk, Suleyman the Magnificent, Sultan of Ottomans, New York, 1929, Fransızca trc. Soliman le Magnefique, Paris 1930, səh. 84

17 Granduir et Decadance de l'Asie*, Paris 1939, səh. 126-128, (*Tarih ve Medeniyet Dergisi*, yanvar 1999, səh.16)*

18 Macar Serhadlerinde XVI: asır Türk Devri, Türk trc., Ülkü, nr.82, səh.309

19 İbid, nr.XVI 91, səh.50

20 Derleyen Mutlu Altay, Türkler İçin Ne Diyorlar, Türk Kültürünü Araştırma Enstitüsü, Diyanet Vakfı İstanbul Araştırma Merkezi Kütüphanesi, səh. 18-19

21 E. Esenkova, Türk Düşüncesi, 1955 fevral, səh. 196

22 *Joseph Hammer-Purgstall,* Histoire de l'Empire Ottoman, Depuis son Origine jusqu'à nos jours*, Paris 1839, XV. 350*

23 Mehmed Niyazi, Medeniyet Ülkesini Arıyor, İst. 1991, səh. 51, Tuğra Neşriyat

24 Ali Ünal, Müslüman Türk'ün Dünyası ve Sürülmeye Çalışılan Lekeler, 23 yanvar 1997, Zaman Gazetesi

25 N. Iorga, Histoire des Etats Balcaniques, Paris 1925, səh.4

*26* Mahomet II, Le Conquerant et Son Temps 1432-1481*, Paris 1954, səh. 502*

27 Süleyman Kocabaş, Tarihte Adil Türk İdaresi, Vatan Yay., İst. 1994, səh. 86

28 Tarih ve Medeniyet Dergisi, fevral 1995 sayı, səh.27

29 Ha'aretz Gazetesi, *18.8.2000*

30 Jason Goodwin, "Learning From the Ottomans", 16.8.1999, New York Times

31 Prof. Dr. Ramazan Özey, Yiğit Düştüğü Yerden Kalkar, Tarih ve Düşünce, avqust 2000, səh. 30

32 Şükrü Karatepe, Yeni Şafak, 29 mart 1999

33 Başbakanlık Arşivi, Bulgaristan İdare Kataloğu, nr. 89

34 Başbakanlık Arşivi, Bulgaristan İdare Kataloğu, nr. 79

35 Maria Todorova. "The Ottoman Legacy in the Balkans", The Balkans: A Mirror of the New International Order. (ed. G. G. Özdoğan, K. Saşbaşlı) Eren, İstanbul, 1995. səh. 70

36 Eran Frankel. "Turning a Donkey into a Horse: Conflict and Paradox in the Identity of Macedonian Muslims", 23rd National Convention of the AAASS, Miami, 1991

*37 Eran Frankel.* "Turning a Donkey into a Horse: Conflict and Paradox in the Identity of Macedonian Muslims"*, 23rd National Convention of the AAASS, Miami, 1991*

38 Maria Todorova. "The Ottoman Legacy in the Balkans". The Balkans: A Mirror of the New International Order. (ed. G. G. Özdoğan, K. Saşbaşlı) Eren, İstanbul, 1995. səh. 71

39 Maria Todorova. "The Ottoman Legacy in the Balkans". The Balkans: A Mirror of the New International Order. (ed. G. G. Özdoğan, K. Saşbaşlı) Eren, İstanbul, 1995. səh. 72

40 Gündüz Gazetesi, 12 yanvar 1997

41 İsmail Yediler, "Osmanlı'nın yani İslam'ın", 22 sentyabr 1994, Zaman Gazetesi

42 Lenni Brenner, The Iron Wall: Zionist Revisionism from Jabontinsky to Shamir, London Zed Books, 1984, səh. 141-143

43 Oya Akgönenç Mughissuddin, "Rusya/Ortodokslar", Yeni Türkiye (Türk Dış Politikası, Özel Sayısı), 3-cü sayı, mart-aprel 1995, səh. 446

44 Başbakanlık Arşivi, Hatt-ı Hümayun, No 44615 g.ı, T. 1814

45 Başbakanlık Arşivi, Hatt-ı Hümayun, No: 44615 i.ı, T. 1814

46 Şinasi Altundağ, Osmanlı İdaresi ve Gürcüler, DTCFD, X, 1-2 (11952), səh.88

47 Doç. Dr. Ramazan Özey, Türk Dünyası, Tarih ve Medeniyet Dergisi, dekabr 1996, səh.60

48 Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977. Səh. 2

49 Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196

50 "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, 63-cü cild, noyabr 1982, səh. 1328-1330.

51 Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7

52 Jeffrey Bada, Earth, fevral 1998, səh. 40

53 Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, 271-ci cild, oktyabr 1994, səh. 78

54 Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189

55 Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184.

56 B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988

57 Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179

58 Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, 87-ci cild, 1976, səh. 133

59 Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. səh. 197

60 Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, 258-ci cild, səh. 389

61 J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992

62 Alan Walker, Science, 207-ci cild, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1st ed., New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, 3-cü cild, Cambridge: Cambridge University Press, 1971, səh. 272

63 Time, noyabr 1996

64 Stephen. J. Gould, Natural History, 85-ci cild, 1976, səh. 30

65 Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19

66 Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar, 1997, səh. 28.

67 Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh.43